Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydə alınmış “Müasir Ginekologiya və Perinatologiyanın aktual məsələləri” jurnalı Azərbaycan Respublikası Prezidenti Yanında Ali Attestasiya Komissiyası Rəyasət Heyətinin 16 May 2014-cü il tarixli (protokol № 07-R) qərarı ilə Tibb elmləri üzrə “Azərbaycan Respublikasının dissertasiyalarının əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövrü elmi nəşrlərin siyahısı”na daxil edilmişdir.

Müasir ginekologiya və perinatologiyanın aktual məsələləri

11 №3/2024

ISSN 2411-3956

protokol № 07-R
11 №03/2024

Müasir ginekologiya və perinatologiyanın aktual məsələləri

Актуальные вопросы современной гинекологии и перинатологии

Actual questions of modern gynaecology and perinatology

Təsisçi: Ginekologiya və Perinatalogiyanın Inkişafına dəstək assosiasiyası

Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydə alınmışdır
(qeydiyyat nömrəsi: 3802)

Baş redaktor:
Qurbanova Cəmilə

Editor in-Chief:
Gurbanova Jamila

Baş redaktor müavini:
Əmirova Aynurə

Associate Editor-in Chief:
Amirova Aynura

Elmi-redaktor:
Əlizadə Səmayə

Scientific Editor:
Alizadeh Samaya

Redaksiya Şurası:
Hüseynova Səadət (Azərbaycan)
Mahalov İslam (Azərbaycan)
Əliyev Şəmistan (Azərbaycan)
Nəsirov Teymur (ABŞ)
İsrafilbəyli Fidan (UK)
Lokşin Vyaçeslav Notanoviç (Qazaxıstan)
Rzaquliyeva Leyla (Azərbaycan)
Qurbanova Fərəh (Azərbaycan)
Shindler Adolt (ABŞ)
Ateş Karateke (Türkiyə)
Ahmet Namazov (İsrail)
Revar Boçorişvili (Fransa)
Piriyev Elvin (Almaniya)
Asatiani Tengiz (Gürcüstan)
Fatkullin İldar Faridoviç (Rusiya)
Mostovoy Aleksey (Rusiya)
Zanko Sergey (Belorusiya)
Brexman Grigory (İsrail)
Kira Ergeniy (Rusiya)

Editorial Board:
Huseynova Saadat (Azerbaijan)
Mahalov Islam (Azerbaijan)
Aliyev Shamistan (Azerbaijan)
Nasirov Teymur (USA)
İsrafilbayli Fidan (UK)
Lokshin Vyacheslav Notanovich (Kasachstan)
Rzaquliyeva Leyla (Azerbaijan)
Gurbanova Farah (Azerbaijan)
Shindler Adolt (USA)
Atesh Karateke (Turkey)
Ahmet Namazov (İsrail)
Revar Bochorishvili (France)
Piriyev Elvin (Germany)
Asatiani Tengiz (Georgia)
Fatkullin İldar Faridoviç (Russia)
Mostovoy Aleksey (Russia)
Zanko Sergey (Belorussia)
Brexman Grigoriy (İsrail)
Kira Evgeniy (Russia)

Ünvan: Bakı şəhəri, B. Ağayev küç., 118, AZ1065
tel.: +99412 510 09 52

Address: AZ1065, Baku, B. Akhayev str. 118,
phone: +99412 510 09 52



Redaktordan:

Hörmətli "Müasir Ginekologiya və Perinatologiyanın Aktual Məsələləri" jurnalının oxucuları! Artıq jurnalımızın 2024-cü ilin üçüncü buraxılışı işıq üzü görür. Nəşr olunduğu illər ərzində biz oxuculara bir-birindən maraqlı icmal və orijinal məqalələr, elmi-tədqiqat işlərinin nəticələrini təqdim etmişik. Əvvəlki nömrələrdə yerli müəlliflərlə yanaşı Rusiya, Türkiyə, Ukraynadan olan kolleqalarımızın elmi işlərinin nəticələrini, "Ginekologiya və Perinatologiyanın İnkişafına Dəstək" assosiasiyasının keçirdiyi beynəlxalq konfrans materiallarını da jurnalımızda çap etmişik. Jurnalın hazırkı buraxılışında Respublikamızda olan müxtəlif elmi-tədqiqat mərkəzlərinin təqdim etdiyi məqalələri dərc etməyi məqsədəuyğun bildik. Ümid edirik ki, bundan sonra da jurnala daxil edilən məqalələr oxucuların marağına səbəb olacaq və nəşrlərimiz geniş oxucu kütləsi qazanacaq.

"Müasir Ginekologiya və Perinatologiyanın Aktual Məsələləri" jurnalı bütün oxuculara öz elmi və praktik fəaliyyətində uğurlar və müvəffəqiyyətlər arzulayır.

Baş redaktor
Elmi Tədqiqat Mamalıq və Ginekologiya
İnstitutunun direktoru, "Ginekologiya və
Perinatologiyanın İnkişafına Dəstək"
İctimai birliyinin rəhbəri

Professor, tibb elmləri doktoru
Qurbanova Cəmilə Fazil qızı

Mündəricat:

VAXTINDAN ƏVVƏL DOĞUŞLARDA UŞAQLIQDA OLAN ÇAPIĞIN YARARSIZLIĞININ ROLU
C.F. Qurbanova, X.M. Adıgözəlova, T.H. Əlinağıyeva,
A.E. Hüseynova, T.T. Kərimova, E.Ş. Səlimova,
Z.B. Abdullayeva, S.Ş. Vəliyeva 9

OSTEOPOROZUN DİAQNOSTİKASINDA YENİ YANAŞMALAR
A.F. Əmirova, A.İ. Məmmədrəhimova 18

PELVİK ORQAN PROLAPSINDA DİAQNOSTİKA VƏ MÜALİCƏDƏ OPTİMAL YANAŞMALAR
Hüseynova Flora Fərəc qızı 28

СРАВНИТЕЛЬНАЯ ОЦЕНКА МЕТОДОВ ДИАГНОСТИКИ ПРЕЖДЕВРЕМЕННЫХ РОДОВ
Дж.Ф. Курбанова, Н.А. Шахбазова, Л.Р. Сулейманова,
Х.М. Адыгёзалова, К.Х. Эфендиева..... 34

HAMİLƏLƏRDƏ ERKƏN ZAHILIQ DÖVRÜNDƏ HİPOTONİK QANAXMALARIN
İNTENSİVLİYİNİ ARTIRAN RİSK AMİLLƏRİNİN RASTGƏLMƏ TEZLİYİ
S.S. Həsənova, E.M. Əliyeva, A.V. Rzayeva,
X.P. Zeynalova, A.N. Xudiyeva, A.Ə. Qocayeva 40

ADENOMİOZUN DİFFÜZ VƏ DÜYÜNLÜ FORMALARININ QADINLARIN
REPRODUKTİV FUNKSİYASINA TƏSİRİ
M.E. Əzizova 44

ЭТИОЛОГИЯ И ЛЕЧЕНИЕ ГИПЕРБИЛЛИРУБИНЕМИИ У НЕДОНОШЕННЫХ
НОВОРОЖДЕННЫХ 34-37 НЕДЕЛЬНОГО ВОЗРАСТА
Г.Д. Алиева, Р.М. Мамедова, Н.З. Самедова 50

Məqalələrin tərtibat qaydaları (əsas müddəalar)

1. Jurnalda yalnız indiyədək əvvəllər digər nəşrlərdə çap olunmamış məqalələr çap olunur. Redaksiyaya digər nəşrlərə istiqamətləndirilmiş işlərin göndərilməsinə icazə verilmir.

2. I səhifənin tərtibatı:

- məqalənin adı;
- müəllifi n (müəllifl ərin) adı, atasının adı və soyadı;
- Tabe olduğu qurumla birlikdə (Azərbaycan Respublikası Səhiyyə Nazirliyi və s.) işin yerinə yetirildiyi müəssisənin (müəssisələrin) adı, daha sonra müəssisənin yerləşdiyi ölkənin, şəhərin adı;
- müəllifi n soyadı və müəssisənin adı ilə yanaşı, yuxarıda müəllifl ərdən hər birinin işlədiyi müəssisənin adı göstərilməlidir.
- redaksiya üçün məlumatlar: bütün müəllifl ərin adı, soyadı, ata adı (tam şəkildə), elmi dərəcəsi, müəssisədə/ müəssisələrdə tutduğu vəzifə, indekslə birlikdə iş yerinin ünvanı, iş telefonu və elektron poçt ünvanları göstərilməlidir. İxtisarlara yol verilməməlidir.

3. Məqalənin adı qısa və informativ xarakterli olmalıdır. Məqalənin başlığında ixtisarların, həmçinin dərman preparatlarının ticari (kommersiya) adlarının, bioloji fəal əlavələrin, ərzaqların, qulluq vasitələrinin, tibbi ləvazimatların, diaqnostik qurğuların, diaqnostik testlərin və s. adlarının daxil edilməsinə icazə verilmir.

4. "Təcrübə həkiminə kömək" bölməsində orijinal məqalələrin, ədəbiyyat xülasələrinin və məqalələrin həcmi 10, təcrübə qeydləri və rəylər 4 səhifədən artıq olmamalıdır. Məqalədəki rəsmlərin və ya cədvəllərin sayı 3-dən artıq olmamalıdır. Redaksiya məqalələri ixtisar və redaktə etmək hüququnu özündə saxlayır.

Rules for submitting articles (Main regulations)

1. The magazine publishes articles that have never been issued in any kind of publications before. Editorial office doesn't accept articles which are already submitted to other publications.

2. Layout of 1st page:

- An article title;
- Author's (authors') first name, father's name and last name;
- Name of an enterprise(s) where task took place, as well as name of institution it belongs to (such as: The Ministry of Health of Azerbaijan Republic, ENTERPRISE's NAME), place of enterprise (including country and city);
- Besides author's last name and name of an enterprise, write down the name of enterprises where each author works
- Information for editorial office: authors' name, last name and father's name (full name), academic degree, academic rank, position at enterprise(s), full address (including postal code) of work station and e-mail addresses. Shortening is prohibited.

3. Article's title should be short and informative. It's not allowed to include any shortening, abbreviations, commercial names of medicine, name of biologically active food supplements, food, care products, medical equipment, diagnostic equipment, diagnostic tests and etc.

4. Original articles, bibliography summaries and articles in "To help the practitioner" section shouldn't be more than 10 pages. As well as practice notes and reviews shouldn't exceed 4 pages. In total an article shouldn't contain more than 3 images and/or graphs. Editorial office holds the right to shorten and edit articles.

Правила оформления статей (основные положения)

1. Опубликованию в журнале подлежат только статьи, ранее не публиковавшиеся в других изданиях. Не допускается направление в редакцию работ, которые отправлены в другие издания.

2. Оформление первой страницы:

- название статьи;
- инициалы и фамилия автора (авторов);
- наименование учреждения (учреждений), в котором (которых) была выполнена работа с указанием ведомственной принадлежности (Министерство здравоохранения Азербайджанской республики и т.д.), затем указываются город, где расположено учреждение и страна;
- рядом с фамилией автора и названием учреждения цифрами в верхнем регистре обозначается, в каком учреждении работает каждый из авторов
- сведения для редакции: указываются фамилия, имя, отчество (полностью), ученая степень, ученое звание, должность в учреждении/ учреждениях, рабочий адрес с почтовым индексом, рабочий телефон и адрес электронной почты всех авторов. Сокращения не допускаются.

3. Название статьи должно быть кратким и информативным. В заглавии статьи не допускается использование сокращений и аббревиатур, а также торговых (коммерческих) названий препаратов, биологически активных добавок к пище, продуктов, средств по уходу, медицинской аппаратуры, диагностического оборудования, диагностических тестов и т.д.

5. Orijinal məqalələr bu bölmələrə malik olmalıdırlar: müxtəsər giriş, tədqiqatın məqsədi, material və metod, nəticələr və müzakirələr, nəticə. Mətndə bütün bölmələr tünd şriftlə fərqləndirilməlidir.

6. Məqalə müəllif tərəfi ndən diqqətlə yoxlanılmalıdır. Riyazi formullarda bütün elementlərin dəqiq yerləşdirilməsi zəruridir: latın və yunan hərfl əri, sətirüstü və sətiraltı indekslər, hərflərin və rəqəmlərin yazılışına bənzər qeyd və sətri hərflər.

7. Cədvəllər ümumiləşdirilmiş və statistik baxımından işlənilmiş məlumatları əks etdirməlidir. Ölçü vahidləri ÖS-də (Ölçü Sistemində) təqdim edilmişdir. Hər bir cədvəlin öz nömrəsi və başlığı olmalıdır.

8. Məqalə mətnindəki biblioqrafik iqtibaslar kvadratşəkilli mörtərizələrdə müəllifi n sitatlarına müvafiq şəkildə (əlifb a üzrə deyil), həmçinin məqalədən əvvəl verilmiş ədəbiyyat siyahısına tam uyğun formada düzülür. Orijinal məqalələrdə müraciət olunan məqalələrin sayı 30-dan, ədəbiyyat xülasələrində 60-dan çox olmamalıdır. Mühazirələrdə və digər materiallarda 15-ə qədər olmalıdır. Müəllif ədəbiyyat siyahısında verilmiş məlumatların dəqiqliyinə görə məsuliyyət daşıyır.

9. İllüstrasiya materialı mətn üzrə və ayrıca faylda verilir. Fotolar və slaydlar TIFF, JPG formatında (yüksək keyfiyyətli) təqdim olunmalıdır. Fotoşəklin ölçüsü 1500x1500 pikseldən az olmamalıdır. Word proqaramında fotoşəkillər qəbul olunmur! Qrafik materiallar (sxemlər, diaqramlar, qrafiklər) Excel proqramında təqdim olunmalıdır. Şəklə ümümi ad verilir, sonra isə bütün hərfi və rəqəmsal mənalar izah olunur. Mikrofotoşəkillərə verilən adlarda rənglənmə və böyüdülmə metodunun göstərilməsi zəruridir.

5. Original articles should have these sections: brief introduction, purpose of research, material and method, results and discussions, conclusion. All sections should be diff erentiated by bold fonts.

6. Article should be well examined by author. In mathematical formulas all the elements have to be placed correctly: Latin and Greek lett ers, subscript and superscript indexes, uppercase and lowercase lett ers, similar writings of lett ers and numbers.

7. Graphs should show generalized and statistical information. Measurement units are given according to International System of Units (SI). Each graph should have its' own number and caption.

8. In an article bibliographic citations should be writt en in brackets, be ordered according to author's citations' order (not in alphabetic order) and be exactly same as the list of bibliography which author submits in advance to submitt ing an article. Cited sources should not be more than 30 in original articles, 60 in bibliographic summaries, 15 in lectures and in other texts. Author is responsible for accuracy of information in a list of bibliography.

9. Illustrations should be categorized according to each article and be submitt ed in separate file. Pictures and slide shows should be submitt ed in TIFF or JPEG format with highresolution. Size of a picture should be no less than 1500 pixels by 1500 pixels. Pictures are not accepted in a word file, but graphs (schemes, diagrams, graphs) should be submitt ed in an excel fi le. Picture should get a general name fi rst, then literal or other meanings of a picture have to be explained. In microphotographs' captions, coloring and zoom methods have to be written.

4. Объем оригинальных статей, обзоров литературы и статей раздела «В помощь практическому врачу» не должен превышать 10 стр., заметок из практики и рецензий – 4. В статье должно быть не более 3рисунков и/или 3 таблиц. Редакция оставляет за собой право сокращать и редактировать статьи.

5. Оригинальные статьи должны иметь следующие разделы: краткое введение, цель исследования, материал и методы, результаты и обсуждение, заключение или выводы. Все разделы должны быть выделены в тексте жирным шрифтом.

6. Статья должна быть тщательно выверена автором. В математических формулах необходимо четко разметить все элементы: латинские и греческие буквы, надстрочные и подстрочные индексы, прописные и строчные буквы, сходные по написанию буквы и цифры.

7. Таблицы должны содержать обобщенные и статистически обработанные данные. Единицы измерения даются в системе СИ. Каждая таблица должа иметь номер и заголовок.

8. Библиографические ссылки в тексте статьи располагаются в квадратных скобках в порядке цитирования автором (не по алфавиту) в строгом соответствии с пристатейным списком литературы. В оригинальных статьях допускается цитировать не более 30 источников, в обзорах литературы – не более 60, в лекциях и других материалах- до 15. Автор несет полную ответственность за точность данных списка литературы.

9. Иллюстративный материал прилагается по тексту и отдельным файлом. Фотографии и слайды должны быть представлены в форматах TIFF, JPG (высокого качества). Размер снимка не менее 1500x1500

10. Məqalə mətninin tərtibatına dair tələblər: Vərəq formatı – A4, şrift Times New Roman, keqlem 12, sətirlərarası interval - 1,5. Redaksiyaya göndərilən sənədin formatı “doc” və ya “docx”. Məqalələrin formatı: orijinallar üçün 10-dən artıq olmamaqla, 15- ədəbiyyat xülasəsi üçün, 11- mühazirələr üçün, 7- kliniki müşahidə üçün.

11. Dərman preparatlarının təsviri zamanı onlar haqqında ilk dəfə bəhs olunarkən fəal substansiyalar göstərilməlidir (beynəlxalq qeyri-patent adı – BQPA), kommersiya adı, istehsalçı şirkət, istehsalçı ölkə; bütün adlar və dozalar diqqətlə yoxlanılmalıdır.

12. Jurnaldakı məqalədən sitat verərkən– müəllifl ərin soyadı, adı, atasının adı (əgər müəllifl ərin sayı 6 və ya daha çoxdursa, bu halda ilk beş müəllifi n adı qeyd olunmalıdır və daha sonar Azərbaycan dilində olan mətnlərdə “və b.”, rus dilində olan mətnlərdə “и др.”, ingilis dilində olan mətnlərdə “et al.” yazılmalıdır), məqalənin tam adı, jurnalın qısaldılmış adı (ixtisarlar Medline üslubuna uyğun olmalıdır), ili, cildi, sayı, səhifələri (ilk və son) göstərilməlidir. Kitabdan (kitablar, monoqrafi yalar, konfrans materialları və s.) sitat göstərərkən – müəlliflərin soyadı, adı, atasının adı, kitabın tam adı, ölkəsi, nəşriyyatı və nəşr ili tam şəkildə göstərilməlidir.

13. Hər bir məqaləyə açar sözlərlə birlikdə xülasə də əlavə edilir. Xülasə məqalənin bölmələrinin məzmununu müxtəsər şəkildə əks etdirməlidir (tədqiqatın məqsədi, tədqiqatın materialı və metodları, nəticə). Xülasənin həcmi 600-1000 çap işarəsi olmalıdır.

14. Müəllif mütləq öz məqaləsini imzalamalıdır. Müəllif məqalənin sonunda öz imzasını qoymaqla redaksiyaya onu çap etmək hüququ verir, onun orijinallığını təmin edir və təsdiq edir ki, nə məqalənin üzü,

10. Text layout of an article: Page size – A4, font – Times New Roman, font size – 12, line and paragraph spacing – 1.5. Files sent to editorial offi ceshould be in .doc or .docx fi le format. Size of article: for original articles

– not more than 10 pages, for bibliographic summaries – not more than 15 pages, for lectures

– not more than 11 pages, for clinical observations – not more than 7 pages.

11. When you describe the medicine for the fi rst time throughout the article you have to mention active substances (International Non-proprietary Name – INN), it’s commercial name, manufacturer’s name, origin of manufacture (country’s name). All the names and dosage should be carefully checked.

12. When citing from magazine article – names, fathers’ name and last name of authors (if there are six or more authors, then names of first five authors should be written fully and the rest should be mentioned as “və b.” for articles in Azerbaijani, “и др.” For articles in Russian and “et al.” for articles in English), full name of an article, shortened name of magazine (abbreviations should be according to Medline format), issued year, volume number, issue number, pages (fi rst and last) should be well noted.

When quoting from book (books, monographs, materials for conference and etc.) text – last name, first name, father’s name of authors, full name the book, year of publishing, country and publication house it’s published in should be clearly stated.

13. Along with keywords article should also have a summary. Sections should be briefly included in summary (purpose of research, material and methods of research, result). Summary should be between 600 and 1000 characters.

14. Author has to sign at the end of his/her own article. By

пикселей. Фотографии в программе Word не принимаются! Графические материалы (схемы, диаграммы, графики) должны быть представлены в программе Excel. К рисунку дается общая подпись, затем объясняют все цифровые и буквенные обозначения. В подписях к микрофотографиям необходимо указать метод окраски и увеличение.

10. Требования к оформлению текста статьи: Формат листа –А4, шрифтом Times New Roman, кеглем 12, межстрочный интервал-1,5. Формат документа в отправке в редакцию- «. doc или ». docx. Объем статей не более 10 страниц – для оригинальной, 15- для обзора литературы, 11- для лекций, 7- для клинического наблюдения.

11. При описании лекарственных препаратов при первом их упоминании должны быть указаны активная субстанция (международное непатентованное название – МНН), коммерческое название, фирма-производитель, страна производства; все названия и дозировки должны быть тщательно выверены.
12. При цитировании статьи в журнале – фамилии и инициалы авторов (если авторов шесть и более, то указывают первых пять авторов и ставят «и др.» в русских статьях или « et al.» - в английских), полное название статьи, сокращенное название журнала (сокращения должны соответствовать стилю Medline), год, том, номер, страницы (первая и последняя). При цитировании книжного издания (книги, монографии, материалов конференций и др.) – фамилии и инициалы авторов, полное название книги, место, издательство и год издания.

13. К каждой статье прилагается резюме с ключевыми словами. Резюме должно отражать краткое содержание разделов статьи (цель исследования, материал и методы

nə ona əlavə edilmiş rəsmlər əvvəl heç bir yerdə çap olunmayıb və heç bir redaksiyaya göndərilməyib.

15. Redaksiya çap olunacaq materialların seçim, redaktə, çapa gedən materialların ixtisar və jurnala uyğunlaşdırılma hüququnu özündə saxlayır.

16. Göndərilən əlyazmalar geri qaytarılmır.

17. Tərtibat qaydalarına müvafiq olmayan məqalələrə baxılmır.

signing article author grants editorial office the right of publishing this article; he/she also assures that this article is original and copy of this article or any images used in this article have never been published or submitted to any publications before.

15. Editorial office holds the right to choose articles for publishing, to edit, to shorten published articles and to reconcile according to the magazine.

16. Submitted manuscripts won't be returned.

17. Articles that don't meet submitting requirements will not be considered.

исследования, результаты исследования, заключение). Объем резюме 600-1000 печатных знаков.

14. Автор обязательно подписывает свою статью. Ставя под статьей свою подпись, автор тем самым передает редакции право на ее издание, гарантирует ее оригинальность и удостоверяет, что ни сама статья, ни рисунки к ней не были опубликованы ранее и не посланы для публикации в другие издания.

15. Редакция оставляет за собой право отбора материалов для опубликования, редактирования, сокращения публикуемых материалов и адаптации их к рубрикам журнала.

16. Присланные рукописи обратно не возвращаются.

17. Статьи, представленные с нарушением правил оформления, не рассматриваются.


VAXTINDAN ƏVVƏL DOĞUŞLARDA UŞAQLIQDA OLAN ÇAPIĞIN YARARSIZLIĞININ ROLU

C.F. Qurbanova, X.M. Adıgözəlova, T.H. Əlinağıyeva, A.E. Hüseynova,
T.T. Kərimova, E.Ş. Səlimova, Z.B. Abdullayeva, S.Ş. Vəliyeva
Publik hüquqi şəxs Elmi-Tədqiqat Mamalıq və Ginekologiya İnstitutu, Bakı, Azərbaycan

Açar sözlər: *vaxtından əvvəl doğuş, uşaqlıqda çapıq, qeysəriyyə kəsiyi, ultrasəs, servikal kanal, uşaqlığın aşağı seqmenti*

Vaxtından əvvəl doğuş (VƏD) bütün dünyada neonatal xəstələnmə və ölüm hallarının əsas səbəblərindən biridir və müasir mamalıqda hələ də həll edilməmiş ciddi problem olaraq qalır. Vaxtından əvvəl doğuşların qlobal rast gəlmə tezliyinin ümumi əhali arasında təxminən 9-11% olduğu təxmin edilir [1].

Vaxtından əvvəl doğuş hamiləliyin 22-37 həftələri arasında baş verən doğuşdur və multifaktorial etiologiyalı kompleks mamalıq sindromudur. Vaxtından əvvəl doğuşun səbəblərinə hələ də böyük maraq var. Vaxtından əvvəl doğuşun uşaqlığın həddindən artıq gərginliyi, iltihab (məsələn, infeksiya), uşaqlıq-plasentar işemiya, qan dövranı pozulmaları və ya bir neçə amilin birləşməsi kimi çoxsaylı mexaniki amillərin səbəb olduğu bir sindrom olduğuna fikir geniş yayılıb [2]. Vaxtından əvvəl doğuşu proqnozlaşdırmaq üçün aşağı uşaqlıq seqmentinin <4,5 mm bərabəri olan qalınlığından istifadə edərək P. Yapan et al. [3], digər amillərə düzəliş edildikdən sonra VƏD riskinin 2,37 artdığını bildirdilər. Uşaqlığın aşağı seqmentinin qalınlığının ölçülməsi üsulu aşağıdakı kimi idi. Voluson E5 ultrasəs platformasına (General Electric, Zıpf, Avstriya) qoşulmuş iki ölçülü 8Mhz ultrasəs sensoru qasıq simfizinin üstündəki sagittal müstəviyə yerləşdirildi (şəkil 1).




Şəkil 1. *Uşaqlığın aşağı seqmentinin qalınlığının ölçülməsi. a) Ultrasəs sensoru sidik kisəsini, görünən servikal kanal və uşaqlığın ön divarını görmək üçün qasıq simfizinin üstündəki sagittal müstəviyə yerləşdirilir; b) Uşaqlığın ön divarı və sidik kisəsi ekranın çox hissəsini tutana qədər görüntü böyüdülür; c) Üfüqi müstəvidə, ölçü nöqtəsini qeyd etmək üçün sidik kisəsi günbəzi ilə uşaqlığın ön divarı arasında virtual qırmızı nöqtəli xətt çəkilir. Sarı xətt uşaqlığın aşağı seqmentinin əhatə edən peritonu təmsil edir; d) Uşaqlığın aşağı ön divarının qalınlığını ölçmək üçün kalibrlər içəriyə yerləşdirilir.*

Kiçik bir düzəlişdən sonra, sidik kisəsinin görüntüsü, az miqdarda qalıq sidik və orta sagittal müstəvidə servikal kanal aydın şəkildə görüntülənəcəkdir. Uşaqlığın aşağı ön divarı və sidik kisəsi ekranın çox hissəsini tutana qədər görüntü böyüdülür. Sidik kisəsinin günbəzi ilə uşaqlığın aşağı ön divarını birləşdirən virtual üfüqi xətt quruldu [3]. Birinci kalibr birbaşa peritonun altına, ikincisi isə uşaqlıq-amniotik maye interfeysinə (daxili) yerləşdirildi.


Tədqiqat nəticələri servikal vəziyyətin qiymətləndirilməsinin, məsələn, servikal kanalın uzunluğunun VƏD-nu proqnozlaşdıra biləcəyini göstərir. Son zamanlarda servikal kanalın uzunluğunun transvaginal sonoqrafiyası hamiləliyin həm ikinci, həm də üçüncü trimestrlərində VƏD təhlükəsini qiymətləndirmək üçün əsas üsuldur. Servikal kanal uzunluğunun transvaginal sonoqrafiyası VƏD proqnozlaşdırılması üçün ən çox yayılmış markerlərdən biridir [4, 5]. Təkrarlanan Qeysəriyyə kəsiyi (QK) olan qadınlarda uşaqlığın aşağı seqmentinin qalınlığının və servikal kanalın uzunluğunun qiymətləndirilməsi, çox güman ki, ardıcıl olaraq VƏD-i proqnozlaşdırır.

Uşaqlıqda olan çapıq VƏD riskini artırır. Uşaqlığda olan çapıqlar çox vaxt anamnezdəki əməliyyatı ilə əlaqələndirilir və ən çox QK əməliyyatından sonra baş verir (şəkil 2-5). Uşaqlıqdakı çapıqların digər səbəbləri arasında miomektomiya, uşaqlıqdaxili müdaxilələr nəticəsində uşaqlıq perforasiyası və uşaqlıq qüsurlarının korreksiyası daxildir [2].


Qeysəriyyə kəsiyi əməliyyatı distosiya və doğuşdan sonrakı mənfi reaksiyaların tezliyini əhəmiyyətli dərəcədə azalda bilsə də, uşaqlıqda çapıq olan hamilə qadınların sayını əhəmiyyətli dərəcədə artıra bilər və anaların və uşaqların sağlamlığı üçün müəyyən bir təhlükə yaradan çapıq hamiləliyi, plasenta implantasiyası, plasentanın gəlişi və digər hadisələr riskini artıra bilər [6].




Şəkil 2. *Normal uşaqlıq*



Şəkil 3. *Uşaqlıqda tam yararlı çapıq (ox işarədi)*



Şəkil 4. *Uşaqlıqda natam çapıq (ox işarəsi)*



Şəkil 5. *Qeysər kəsiyindən sonra uşaqlığın aşağı seqmenti bölgəsində anexogen sahə - çapığın yararsızlığı*

Dünyada QK tezliyinin davamlı artması və reproduktiv yaşda olan qadınlarda laparoskopik miomektomiyanın geniş istifadəsi ilə çapıqlı uşaqlıqda sonrakı hamiləlik problemi qaçılmazdır [7].

Uşaqlıqda çapıq bir cərrahi müdaxilə, terapevtik və diaqnostik manipulyasiyalar və nüfuz edən xəsarətlər zamanı bütövlüyünün pozulması nəticəsində uşaqlıq divarının dəyişdirilmiş bir hissəsidir. Hamilə uşaqlığın böyüməsi zamanı klinik olaraq özünü göstərir və hamiləliyin planlaşdırılması və sonrakı doğuş üçün ilkin müayinəyə ehtiyacı var. Uşaqlıqda çapıq uşaqlıq divarındakı qüsurun sağalmış zonasıdır. Bu sahə ya əzələ, ya da birləşdirici toxuma elementləri ilə əvəz edilə bilər ki, bu da onun tamlıq dərəcəsini əks etdirir (şəkil 2-5).

Qeysər kəsiyi əməliyyatlarının sayının tədricən artması ilə uşaqlıqda çapıqlar çoxlu şəkildə görünür. Bu gün uşaqlıqda çapığı olan hamilə qadınların doğuş məsələsi, daha çox təkrarlanan QK və sonradan ortaya çıxan ağırlaşmalar səbəbindən getdikcə aktuallaşır.

Sonrakı hamiləliklərdə, QK və vaginal doğuş da daxil olmaqla, uşaqlıqda çapıqların olması zamanı doğuşunun iki üsulu var. Təkrarlanan QK bəzi ana və körpə ağırlaşmalarını və neonatal ölümləri azalda bilər, lakin təkrarlanan QK xəstələrdə ağrı, çanaq bitişmələri və cərrahi travmaların tezliyini də artıra bilər.


Uşaqlıqda çapıqla hamiləlik mənfi nəticələrlə sıx bağlıdır [2]. Lakin uşaqlıqda çapıq olan hamilə qadınların doğuşunun optimal yolu barədə fikir birliyi yoxdur.

Bununla belə, uşaqlıqda çapığı olan hamilə qadınlar üçün optimal doğuş üsulunun nə olduğuna dair konsensus yoxdur. Tibb ictimaiyyətinin bir hissəsi bu cür hamilə qadınların vaqinal yolla doğuşun

vacibliyi barədə fikirdədir, digərləri isə, doğuşda bir çapıqla uşaqlığın cırılması ehtimalı ilə ağırlaşan çapıqın intranatal tutarlılığı üçün ümumi qəbul edilmiş meyarların olmaması səbəbindən QK-yə ehtiyac olduğunu iddia edirlər [8, 9].

Son illərdə mama-ginekologlar QK-dən sonra uşaqlıqda çapıq olduqda sonrakı hamiləlik üçün vaginal sınaq doğuş konsepsiyasını qəbul etdilər. Bəzi elmi tədqiqatlara əsasən, əvvəlki QK-dən sonra uşaqlıqda çapıqla vaginal doğuşun müvəffəqiyyət nisbətinin 82,61% qədər yüksək ola biləcəyini təqdim edilib [6].

Miometrial toxumanın bir hissəsinin işemik nekrozu QK qüsurunun və onu müşayiət edən çapıqların və yapışmaların əmələ gəlməsini ən yaxşı şəkildə izah edir [10] (şəkil 6-8).



Şəkil 6. *Çapıqda qismən yararsızlıq. Miometriumun nazikləşməsi, çapıq sahəsində birləşdirici toxuma əlavələri*



Şəkil 7. *Uşaqlığın retrodeviasiyası. Çapıq bölgəsində toxuma qüsuru*



Şəkil 8. *"Müflis" çapıq, çapıq sahəsindəki miometrium müəyyən edilmir, sidik kisəsinin endometriozu.*

Qeysər kəsiyi əməliyyatından sonra uşaqlıqda çapıqla olan hamiləliklərdə, məsələn, cift gəlişi, qeyri-normal ciftin yerləşməsi və sonrakı hamiləliklərdə ciftin vaxtında əvvəl ayrılması kimi ağırlaşmaların riskini artırır [11]. Uşaqlıqdakı çapıq da maye və ya qan durğunluğu ilə çapıq qüsuru ("rəf", istmosele) yarada bilər (şəkil 9). Bunun sonrakı hamiləlikdə VƏD riski ilə əlaqəli olub olmadığı aydın deyil [11].



Şəkil 9. *Natamam uşaqlıqda çapıq. Çapıq sahəsində dərin bir "rəf". Miometrium müəyyən edilmir.*

Hamiləlik zamanı uşaqlıqda çapıq müəyyən təhlükələr yaradır. Lakin, mümkün ağırlaşmaları proqnozlaşdırmaq üçün əməliyyatdan sonrakı dövrün gedişatı və uşaqlıqda yaraların sağalmasının xüsusiyyətləri mühüm rol oynayır.

Logistik reqressiya təhlili göstərdi ki, anamnezdə vaginal doğuş yoxdur, prenatal bədən kütləsi indeksi (BKİ) ≥ 30 kq/m2, paritet ≥ 2 dəfə, QK <2 dəfə interval, daxil olma zamanı servikal dilatasiya ≥ 1 sm, dölün baş hündürlüyü ≥ -3 santimetr, dğl qişaların vaxtından əvvəl cırılması və uşaqlığın aşağı seqmentində qalınlığın 3,0-3,9 sm olması uşaqlıqda çapıq hamiləliyin vaginal müayinəsi zamanı fəsadların yaranması üçün yüksək risk faktorlarıdır ($p<0,05$). Hamiləlik dövründə artan BKİ hamiləlik dövründə hipertenziya və diabet kimi mənfi hamiləlik nəticələrinin riskini artıra bilər. Bəzi tədqiqatçılar, yüksək prenatal BKİ dəyərləri olan hamilə qadınlarda, vaginal doğuş zamanı uşaqlıq boynunun nisbətən yavaş açıldığını və vaginal müayinənin uğursuz olma riskini artırdığını qeyd edir [12]. Dölün başına ilk təsir, dölün ilk dəfə çanaq orqanlarına daxil olan hissəsinə aiddir. İlk

məruz qaldıqda dölün başına yüksək təsir göstərən hamilə qadınlarda distosiya daha tez-tez inkişaf edir [13]. Döl qişaların vaxtından əvvəl cırılması, doğuşdan əvvəl qişaların təbii cırılmasına aid olan yayılmış perinatal fəsaddır və bu, perinatal ölümün artmasına səbəb ola bilər. Müvafiq məlumatlar [14] göstərir ki, döl başının yüksək hündürlüyü və döl qişalarının vaxtından əvvəl cırılması olan hamilə qadınlarda QK əməliyyatından sonra yenidoğulmuş asfiksiyanın tezliyi xeyli artmışdır. Uşaqlığın aşağı seqmentinin qalınlığı uşaqlığın cırılması təhlükəsinin proqnozlaşdırıcı göstəricisidir. Uşaqlığın aşağı seqmentinin qalınlığı az olduqda, doğuş zamanı çapığın dartınmasını artıra bilər və uşaqlığın cırılması kimi ağırlaşmalara səbəb ola bilər [15].

Əvvəlki QK əməliyyatı olan qadınlarda çapığın yararsızlığı 3,2% olduğu və VƏD ilə əlaqəli olduğu bildirilmişdir[16]. Ümumiyyətlə, spontan VƏD nisbəti aşağı idi, lakin uşaqlıqda çapıq olan qadınlar arasında əhəmiyyətli dərəcədə artmışdır.

Vaxtından əvvəl doğuşun nisbi riski, çapıqları olmayan qadınlarla müqayisədə servikal uzunluğu azaldıqca, artır. Uşaqlıqda çapıq olan qadınlarda ikinci hamiləlik zamanı hamiləlik itkisi uşaqlıq çapıqları olmayan qadınlara nisbətən 14% daha çox olmuşdur [17, 18].

Bununla belə, nəticədə VƏD inkişaf edə biləcək qadınları müəyyənləşdirmək üçün dəqiq bir test yoxdur. Uşaqlığın aşağı seqmentinin qalınlığının və servikal uzunluğunun ultrasəs (US) qiymətləndirilməsi VƏD-u ən yaxşı şəkildə müəyyən edir (şəkil 10).

Qeysəriyyə kəsiyi əməliyyatından sonra uşaqlıqda çapıq olan qadınlarda VƏD-in etiologiyası hələ də bilinmir. Küretaj və ya aspirasiya yolu ilə hamiləliyin cərrahi yolla kəsilməsinə məruz qalan qadınlarda VƏD riskinin artdığı bildirilir. Bu müşahidənin bioloji izahı tamamilə aydın deyil. Bəzi tədqiqatlar, uşaqlığın cərrahi yolla çıxarılmasından sonra infeksiyaların VƏD riskinin artmasından məsul ola biləcəyini irəli sürdü [1]. Qeysəriyyə kəsikdən sonra əvvəlki uşaqlıq çapığı olan qadınlarda VƏD un etiologiyasının uşaqlıq çapığının müalicəsi üçün alınan müalicə ilə əlaqəli ola biləcəyini güman edilir [1].



Şəkil 10. *Üç qeysəriyyə əməliyyatından sonra uşaqlıqda çapıq defekti - istmosele. Aşağı seqmentdə maye əlavələr. Miometrium müəyyən edilmir.*

E. Khalifa et al. [19] araşdırmasında servikal kanalın uzunluğundan və çapıq qalınlığından əvvəlki QK olan xəstələrdə VƏD-in proqnozlaşdırıcıları (prediktor) kimi istifadə etmişdir. Tədqiqatda cəmi 260 qadın iştirak etmişdir; bunlardan 120 qadın əvvəllər QK keçirməmiş, qalan 140 qadın isə əvvəllər QK keçirmişdir. Əsas və nəzarət qrupları arasında ilkin və mamalıq məlumatlarında əhəmiyyətli fərqlər yox idi (yaş, BKİ, yaşayış yeri, təhsil, məşğulluq, paritet, abort anamnezdə və sonuncu hamiləliyin müddəti). Hər iki qrupda servikal kanalın uzunluğu ilə bağlı kiçik fərqlər var idi. Bununla belə, əsas qrupdakı qadınlarda, ikinci ziyarət zamanı uşaqlığın aşağı seqmentinin qalınlığı əhəmiyyətli dərəcədə nazik idi.

R.C. Boelig et al. [5] nəticələrinə görə, bir döllü hamiləlik və orta trimestrdə servikal uzunluğu 26-29 mm olan aşağı riskli qadınların təxminən 15%-də 24

həftəlik hamiləlikdən əvvəl uşaqlıq boynun ≤25 mm qısalması müşahidə olunur. Anamnezində VƏD olmayan birdöllü hamiləliyi olan qadınlarla müqayisədə, serviksin ilkin uzunluğu 26 mm-dən 29 mm-ə qədər olan və serviksin ≤ 25 mm-ə qədər qısalması olan qadınlarda VƏD-in tezliyi (16%) xeyli yüksəkdir.

Uşaqlığın aşağı seqmenti 2,0 mm-dən az nazikləşəndə doğuş zamanı uşaqlığın cırılması və ya uşaqlıqda çapığın yararsızlığı riski artır. Miometriumun qalıq qalınlığını təyin edərək hamiləliyin birinci trimestrində QK-dən sonra uşaqlıqda çapığının ultrasəs müayinəsi, uşaqlığın cırılması da daxil olmaqla, sonrakı perinatal ağırlaşmalar riski olan xəstələrin erkən aşkarlanması üçün yaxşı bir vasitə ola bilər. Döl və ana nəticələrinə gəldikdə, E. Khalifa et al. [19] əsas qrupun doğum ağırlığının əhəmiyyətli dərəcədə aşağı olduğu və QK və VƏD inkişafının əhəmiyyətli dərəcədə yüksək olduğu bildirdi. Lakin hər iki qrupda da neonatal ölüm və intensiv terapiya şöbəsinə qəbulu ilə bağlı əhəmiyyətsiz fərqlər var idi.

Uşaqlıqda çapıq olan qadınların əksəriyyətinə ilk növbədə təbii vaginal yolla doğuş tövsiyə edilməlidir. Bununla belə, konservativ doğuşa mütləq əks göstərişlərin mövcudluğunu diqqətlə müəyyən etmək lazımdır. Bu cür əks göstərişlərə əvvəlki QK zamanı uşaqlıqdakı kəsiklərin xüsusiyyətləri daxildir. Belə ki, uşaqlığın korporal kəsilməsi olan qadınlar üçün planlaşdırıldığı kimi təkrar QK göstərilir. Aşağı seqmentdə uşaqlığın eninə kəsiyi ilə, çapığın yararlığının təyini nəzərə alınmaqla vaginal doğuşa cəhd etmək tövsiyə olunur. Uşaqlıqda çapıq olan qadınlarda vaginal doğuşun ən qorxunc ağırlaşması, uşaqlığın çapıq boyunca cırılmasıdır. Buna görə, uşaqlığın cırılmasından ən kiçik bir şübhə olduqda, vaginal doğuş dərhal dayandırılmalıdır.

Uşaqlıqda çapıq olan qadınlarda doğuşun aparılmasının müasir taktikası əsasən çapıqın tamlığının diaqnozu üçün instrumental metodlardan asılıdır. Tədqiqatçıların böyük əksəriyyətinin fikrincə, çapıq yararlığının diaqnozu üçün ən məlumatlı üsullar ultrasəs (qarın və vaginal sensorlar) və dopplerometriyadır. Tədqiqatlar miometriumun quruluşunu, çapıq qalınlığının vahidliyini, yüksək akustik sıxlıq sahələrinin mövcudluğunu və aşağı uşaqlıq seqmentinin vaskulyarizasiya dərəcəsini qiymətləndirir. Ultrasəs və dopplerometriyanın yanlış müsbət və yanlış mənfi nəticələrinin tezliyi müvafiq olaraq 12,1 və 7,6% təşkil edir [20]. Uşaqlıqda çapığın tamlığının akustik meyarları bunlardır: ən azı 4-5 mm qalınlığında çapıqın Y şəkilli forması; uşaqlığın digər hissələrində olduğu kimi aşağı seqmentin normal exojenliyi; normal akustik sıxlıq fonunda azalmış səs keçiriciliyinin kiçik sahələri.

Qeyri yararlı çapığın exoqrafik əlamətlərinə aşağıdakılar daxildir: uşaqlığın aşağı seqmentinin balon və ya konus şəklində forması; aşağı seqmentin qalınlığı 3 mm-dən az; normal qalınlığın (4-5 mm) fonunda aşağı seqmentin 3 mm-dən az yerli nazikləşmələr; uşaqlıqdakı keçmiş kəsik sahəsi boyunca akustik sıxlıq. Uşaqlığın aşağı seqmentinin çapıq vəziyyətinin ultrasəslə qiymətləndirilməsinin ümumi dəqiqliyi 81,8%, həssaslıq - 85,2%, spesifiklik - 80,0%, müsbət nəticənin proqnoz dəyəri - 69,7%, mənfi - 90,9% təşkil edir [9].

Əksər müəlliflər çapıq səbəbiylə uşaqlığın cırılması riskinin az olduğunu və vaginal doğuşun təkrar cərrahi doğuşa təhlükəsiz alternativ olduğunu göstərir [9]. Həm anamnestik, həm də klinik-instrumental məlumatların təfərrüatlı təhlili daxil olmaqla inteqrasiya olunmuş yanaşma, uşaqlıq yolunda çapıq olan xəstələrdə hamiləliyin və doğuşun idarə edilməsi üçün rasional taktika seçməyə imkan verəcəkdir.

L. Zhang et al. araşdırmasında [20] (Çin, 2020) uşaqlıqda çapıq olan hamilə qadınlarda yatrogen VƏD-un ümumi riskini qiymətləndirmək üçün altı parametr seçilmişdir: ananın qısa boyu, hamiləliklər arasında son dərəcə qısa və ya proqressiv interval, hamiləlik zamanı vaginal qanaxma, yüksək paritet, hamiləlik zamanı arterial hipertenziya və ciftin gəlişi. Bu amilləri birləşdirməklə, yatrogen VƏD riskini dəqiq proqnozlaşdırmaq olar. Ana və döl tərəfindən göstəriciləri mama-ginekoloqların xəstəni yatrogenik VƏD üçün yüksək riskli hesab etmələrinin və ya hamiləliyi sonlandırmağa meylli olmasının səbəbləridir. Müəlliflər hesab edirlər ki, bu model xəstələrin yatrogen VƏD riskini qiymətləndirərək ana və uşaq nəticələrini yaxşılaşdırır və bununla da müraciətlərin qəbul edilməsinə və tibbi resursların rasional bölüşdürülməsinə kömək edir. Düzgün proqnozla xəstələrə daha yaxşı tibbi xidmət göstərə bilər və bununla da ana və döl üçün proqnozu yaxşılaşdıra bilər. Yanlış proqnoz isə yerli tibbi resursları israf edəcək və ya xəstələri müalicə etmək qabiliyyətini gecikdirəcək [20].

Qeysəriyyə kəsiyi əməliyyatından sonra uşaqlıqda çapıq olan qadınların sonrakı hamiləlik ehtimalı hələ də yüksəkdir və onların əksəriyyətinin hamiləliyi ağırlaşmamış olaraq, vaxtında diri doğuşla nəticələnir. Uşaqlıqda çapıq olan hamilə qadınlarda vaginal doğuş ola bilər. Bununla belə, QK əməliyyatından sonra vaginal doğuş mübahisəli mövzu olaraq qalır, çünki həkimlərə və zahılara sonrakı

hamiləliklər üçün ən yaxşı doğuş variantını təyin etməyə kömək etmək üçün kifayət qədər etibarlı məlumat yoxdur. Doğuşun qeyri-mümkünlüyünə təsir edən bir çox amillər var, müayinənin bütün aspektlərinə daha çox diqqət yetirilməli və göstərişlərə uyğun olaraq istifadə üsulu seçilməlidir.

РЕЗЮМЕ

Роль непригодности рубца на матке при преждевременных родах

Дж.Ф. Курбанова, Х.М. Адыгезалова, Т.Г. Алинагиева, А.Е. Гусейнова, Т.Т. Керимова, Е.Ш. Салимова, З.Б. Абдуллаева, С.Ш. Велиева

Народное юридическое лицо Научно-Исследовательский институт Акушерства и гинекологии

Ключевые слова: *преждевременные роды, рубец на матке, кесарево сечение, сонография, цервикальный канал, нижняя стенка матки*

Преждевременные роды остаются серьезной нерешенной проблемой в современном акушерстве. У женщин с рубцом на матке после перенесенного КС, по-прежнему, высока вероятность последующей беременности, при этом у большинства из них беременность протекает неосложненно, что приводит к рождению живого плода в срок. Беременным женщинам с рубцом на матке возможно проведение вагинальных родов. Однако, вагинальные роды после КС остаются спорной темой: недостаточно достоверных данных, которые могли бы помочь врачам и роженицам определить наилучший вариант родоразрешения при последующей беременности. Существует множество факторов, влияющих на невозможность родоразрешения, следует уделять больше внимания всем аспектам обследования и выбирать способ применения строго в соответствии с показаниями.

SUMMARY

The role of the uselessness of the scar in the uterus in premature births

J.F. Gurbanova, Kh.M. Adıgozalova, T.H. Alinaghıyeva, A.E. Huseynova, T.T. Kerimova, E.S. Salimova, Z.B. Abdullayeva, S.S. Veliyeva

Public legal entity Scientific Research Institute of Obstetrics and Gynecology, Baku, Azerbaijan

Keywords: *premature birth, uterine scar, cesarean section, sonography, cervical canal, lower uterine wall*

Premature birth remains a serious unresolved problem in modern obstetrics. Women with a scarred uterus after undergoing CS are still highly likely to have a subsequent pregnancy, while most of them have uncomplicated pregnancies, which leads to live births on time. Pregnant women with uterine scars may undergo vaginal delivery. However, vaginal delivery after CS remains a controversial topic: there is insufficient reliable data that could help doctors and women in labor determine the best option for delivery during subsequent pregnancy. There are many factors that affect the impossibility of delivery, more attention should be paid to all aspects of the examination and the method of application should be chosen strictly in accordance with the indications.

ƏDƏBİYYAT

1. Morlando M, Conte A, Schiattarella A. Reproductive outcome after cesarean scar pregnancy. Best Practice & Research Clinical Obstetrics & Gynaecology. 2023; 91: 102362. doi: 10.1016/j.bpobgyn.2023.102362
2. Wang S, Hu Q, Liao H, Wang K, Yu H. Perinatal Outcomes of Pregnancy in Women with Scarred Uteri. Int J Womens Health. 2023;15:1453-1465. doi: 10.2147/IJWH.S422187.

3. Yapan P, Wanitpongpan P, Sripang N. Association between lower uterine wall thickness measured at 18-22 weeks of gestation and risk of Preterm Birth: a prospective cohort study. BMC Pregnancy Childbirth. 2022;22(1):618. doi: 10.1186/s12884-022-04902-w.
4. Berghella V, Palacio M, Ness A, Alfirevic Z, Nicolaides KH, Saccone G. Cervical length screening for prevention of preterm birth in singleton pregnancy with threatened preterm labor: systematic review and meta-analysis of randomized controlled trials using individual patient-level data. Ultrasound Obstet Gynecol. 2017 Mar;49(3):322-329. doi: 10.1002/uog.17388.
5. Boelig RC, Kripalu V, Chen SL, Cruz Y, Amanda R, Berghella V. Utility of follow-up cervical length screening in low-risk women with a cervical length of 26 to 29 mm. American Journal of Obstetrics and Gynecology. 2021; 225(2): 179.e1-179.e6. doi: 10.1016/j.ajog.2021.02.027.
6. Ye R, Wang W, Li J. Analysis of high risk factors for complications in the trial of vaginal delivery due to uterine scarring in a subsequent pregnancy to a cesarean section. Invest Clin 2022; 63 (3): 235–242. doi: 10.54817/IC.v63n3a03
7. Haq C. Remembrances and Reflections: global health, local needs, and one very special patient. Fam Med. 2016; 48(1):64-65.
8. Николаева Е.И., Сулима А.Н. Особенности родоразрешения беременных с рубцом на матке. Сибирский научный медицинский журнал. 2023;43(2):54–60. doi: 10.18699/SSMJ20230205
9. Мудров В.А., Мочалова М.Н., Мудров А.А. Особенности родоразрешения беременных с рубцом на матке через естественные родовые пути на современном этапе. Журнал акушерства и женских болезней. 2018:67(1):126–37. doi: 10.17816/JOWD67126-37
10. Sholapurkar SL. Etiology of Cesarean Uterine Scar Defect (Niche): Detailed Critical Analysis of Hypotheses and Prevention Strategies and Peritoneal Closure Debate. Journal of Clinical Medicine Research. 2018; 10(3):166-173. doi: 10.14740/jocmr3271w
11. Visser L, Slaager C, Kazemier BM, Rietveld AL, Oudijk MA, de Groot CJM, et al. Risk of preterm birth after prior term cesarean. BJOG. 2020;127(5):610-617. doi: 10.1111/1471-0528.16083
12. Zafman KB, Stone JL, Factor SH. Trends in characteristics of women choosing contraindicated home births. J Perinat Med 2018; 46(6):573-577. doi: 10.1515/jpm-2018-0029.
13. Németh G, Molnár A. Vaginal birth after cesarean section in light of international opinions. Orv Hetil 2017; 158(30):1168-1174. doi: 10.1556/650.2017.30810.
14. Committee on Practice Bulletins-Obstetrics. Practice Bulletin No. 184: Vaginal Birth After Cesarean Delivery. Obstet Gynecol 2017; 130(5):e217-e233. doi: 10.1097/AOG.0000000000002398.
15. Morton M, Fredericks Ch, Yon R, Nagy K, Bokhari Faran. Damage control laparotomy for uterine rupture following attempted vaginal birth after cesarean. Am Surg 2016; 82(7): 140-141.
16. Silva B, Pinto PV, Costa MA. Cesarean Scar Pregnancy: A systematic review on expectant management. European Journal of Obstetrics & Gynecology and Reproductive Biology. 2023; 288: 36-43. doi: 10.1016/j.ejogrb.2023.06.030
17. Reicher L, Fouks Y, Yogev Y. Cervical Assessment for Predicting Preterm Birth-Cervical Length and Beyond. J Clin Med. 2021;10(4):627. doi: 10.3390/jcm10040627.
18. Creswell L, Rolnik DL, Lindow SW, O'Gorman N. Preterm Birth: Screening and Prediction. Int J Womens Health. 2023;15:1981-1997. doi: 10.2147/IJWH.S436624.
19. Khalifa E, Basset AA, Khairy M, Hussein R, Faraghaly T, Mohamed AA. The Assessment of Cervical Length and Thickness of Cesarean Section Scar as Predictors for Preterm Labor in Patients with Previous Cesarean Section: A Prospective Cohort Study. Evidence Based Women's Health Journal. 2024;6(2):178-184. doi: 10.21608/ebwhj.2023.245122.1276
20. Zhang L, Li H, Li J, Hou Y, Xu B, Li N, et al. Prediction of iatrogenic preterm birth in patients with scarred uterus: a retrospective cohort study in Northeast China. BMC Pregnancy Childbirth. 2020;20:490. doi: 10.1186/s12884-020-03165-7

OSTEOPOROZUN DİAQNOSTİKASINDA YENİ YANAŞMALAR

A.F. Əmirova[1], A.İ. Məmmədrəhimova[2]
[1]Elmi-Tədqiqat Mamalıq və Ginekologiya İnstitutu
POP enmə nahiyyəsinə görə alt kateqoriyalara bölünür. Sistosele uşaqlıq yolunun ön divarının deffekti, rektosele və enterosele uşaqlıq yolunun arxa duvarının deffekti, histerosele isə uşaqlığın, uşaqlıq boynunun və ya uşaqlıq yolunun zirvəsinin enməsini, uşaqlıq yolu güdülünü -histerektomiya sonrası enməsini xarakterizə edir. Onlar tək və ya müştərək baş verə bilər. POP etiologiyası multifaktorial olsa da, hamiləlik və vaginal doğuş arasında yüksək korrelyasiya mövcuddur ki, bu da birbaşa çanaq dibinin əzələsi və birləşdirici toxuma zədələnməsinə səbəb ola bilər [4]. Doğuş sayının artmasının prolaps ilə əlaqəli olduğu müəyyənləşmişdir. Doğuşun ikinci dövrünün uzanması,epizyotomiya, anal sfinkterdə olan zədələnmələr, mamalıq maşaların istifadəsi, doğuşun oksitosinlə stimulyasiya olunması, iri ölçülü dölün doğulması kimi faktorlar prolaps riskini artırır. POP-un rast gəlmə tezliyi yaş artdıqca artır. Artma tezliyi fizioloji yaşlanma və estrogen azlığına bağlı ola bilər. Birləşdirici toxuma xəstəliyi olan qadınlarda POP olma ehtimalı yüksəkdir.Marfan sindromu olan xəstələrdə üçdə birində, Ehler-Danlos sindromu olan xəstələrin dörddə üçündə POP rast gəlinir [5]. Bundan əlavə, əvvəlki çanaq əməliyyatları və ya ağır yüklərin qaldırılması, piylənmə, xroniki öskürək və qəbizlik kimi davamlı artan intraabdominal təzyiq epizodları ilə əlaqəli şərtlər POP inkişaf riskini artıra bilər. Artıq çəki (bədən kütləsi indeksi [BÇİ] ≥25) və piylənmə (BÇİ ≥30) də POP üçün əsas risk faktorlarıdır. Artıq çəkili və piylənməsi olan qadınlarda normal çəkisi olanlara nisbətən POP riski daha yüksəkdir. 22 müxtəlif tədqiqatın təhlili göstərir ki, normal çəkisi olan qadınlarla müqayisədə artıq çəki və piylənməsi olan qadınlarda POP inkişaf riski təxminən 40-50% artıb. Əksinə, arıqlamanın POP reqressiyasına təsiri araşdırılıb və nəticədə çəki itkisinin POP reqressiyası ilə əlaqəli olmadığı görünüb [6]. Pelvik orqan prolapsı çanaq dibinin əzələsi və birləşdirici toxumanın birgə çatışmazlığı nəticəsində yaranır. Prolapsı olan qadınlarda levator ani əzələsinin pubococcygeal hissəsinin zədələnməsi 40% daha çox görülür [2].

Prolaps ilə müraciət edən xəstələrin əksəriyyəti asimptomatikdir. Bununla belə, qabarıqlıq himendən kənara çıxdığında simptomlar daha narahatedici olur [4]. POP zamanı bir çox simptomlar müşahidə olunur. Ən çox görülən simptom aralıq nahiyyəsində əllənən yad cisim hissidir. Qadınlar ən çox uşaqlıq yolundan bir top üzərində oturma və paltarların bu şişkinliyə sürtünməsindən şikayət edirlər.

POP-u olan qadınlar uroloji şikayətlər də müşahidə edilir. Bu şikayətlərə stress sidik saxlamamaq, tez-tez sidiyə getmə, sidiyə gedə bilməmə, təkrarlayan

sidik yolu infeksiyaları aiddir. Həzm sistemi problemlərindən ən çox qəbizlik POP-u olan qadınlarda rast gəlinir [5]. Prolaps daxili vaginal müayinə aparılaraq diaqnoz qoyulur. Bu müayinə litotomiya vəziyyətində aparılır. Müayinə ilk öncə xəstənin valsalva manevrası etməsi ilə başlanılır. Xəstə valsalva manevrası edə bilməsə xəstənin öskürməsi istənilir. Bundan sonra müayinə ginekolojı güzgü ilə davam edir [7].

Müasir elmdə POP üçün bir neçə sinifləndirmə mövcuddur. Bunlardan ən çox istifadə olunan Amerika Uroginekoloqlar Cəmiyyətinin (AUGS) Pelvik Orqan Prolapsın Kəmiyyətləşdirmə Sistemi - (POP–Q)-dür. İlk dəfə olaraq 1996-cı ildə Beynəlxalq Kontinens Cəmiyyəti bu dərəclənməni təklif etmişdir. Bu sistem bir neçə ölçü daxildir. Prolapsdakı hər bir ölçü sabit bir anatomik hissə olan himenə (qızlıq pərdəsi) görə ölçülür. Himenə əsasən ikisi ön divarda olan (Aa və Ba nöqtələri), ikisi arxa divarda olan (Ap və Bp nöqtələri), ikisi apikal hissədə olan (C və D nöqtələri), eyni zamanda ümumi vaginal uzunluq (Tvu), perineal cisim (Pc) və genital hiatus(Gh) olmaqla 9 nöqtə müəyyənləşdirilir. Bunlardan Tvu, Pc, Gh başqa digərləri valsalva manevrasında ölçülür. Aa nöqtəsi uşaqlıq yolunun ön divarında eksternal uretral meatusun 3 sm proksimalında yerləşir və "-3" normal yerləşməni göstərir. Ba nöqtəsi vaginal kaf və ya ön forniksdən Aa nöqtəsinə qədər olan məsafədir və "-3" prolapsın yoxluğunda olur. Ap himenin 3 sm proksimalında yerləşir və normal yerləşimi "-3"-dür. Bp nöqtəsi vaginal kaf və ya arxa forniksdən Ap nöqtəsinə qədər olan məsafədir və "-3" prolapsın yoxluğunda olur. C nöqtəsi uşaqlıq boyunun ən distal kənarı və ya total histerektomiya sonrası güdülün öndə gələn kənarındakı bir nöqtəni göstərir. D nöqtəsi uşaqlıq boynu olan bir qadında arxa forniksin vəziyyətini göstərən nöqtədir, uşaqlıq boynun yoxluğunda istifadə olunmur. D nöqtəsi uterosakral bağın dəstəyinin yetməzliğini göstərir. Ümumi vaginal uzunluq C və D nöqtəsi yerində olduğu zamankı uzunluqdur. Genital hiatus eksternal uretral meatusun ortasından himenin ortasına qədər ölçülür. Perineal cisim isə genital hiatusun arxa kənarından anal dəliyin orta hissəsinə qədər ölçülür (şəkil 1).




Şəkil 1. *POP-Q təsnifatına görə orientir nöqtələrin sxematik göstərilməsi.*

POP-Q zamanı bütün ölçülər himenə əsasən ölçülür. Himen sıfır nöqtəsi kimi götürülür. Himenin üzərində olan ölçülər mənfi ilə işarələnir. Himenin altında olan ölçülər müsbət ilə işarələnir. Bütün ölçülər ölçüldükdən sonra POP dərəcələnir. POP-Q-ə əsasən 5 dərəcə vardır: 0 dərəcə - Prolaps izlənilmir, bütün ölçülər "-3" sm dədir. C və D nöqtəsi –Tvu dən 2 sm kiçikdir (yəni C və D (Tvu-2)-yə bərabər və ya ondan kiçikdir). I dərəcə - Prolapsın ən distal hissəsi himenin 1 sm üzərindədir. II dərəcə - Prolapsın ən distal hissəsi himenin 1 sm proksimal və ya distalındadır. III dərəcə - Prolapsın ən distal hissəsi himendən 1 sm distalındandır, lakin ümumi vaginal uzunluq 2 sm-dən daha çox xaricə çıxmamışdır. IV dərəcə - tam prolpası göstərir və ümumi vaginal uzunluq 2 sm dən çox xaricə çıxmışdır.

Bundan başqa Baden-Walker Halfway dərəcələnməsi də vardır. Bu zaman 5 dərəcədən istifadə olunur. 0 dərəcə hər hissə öz yerində yerləşmişdir. 1-ci dərəcədə bütün hissələr himenə yarı məsafədə yerləşir. 2-ci dərəcədə himenə qədər enmə baş verib. 3 -cü dərəcədə himeni yarı məsafədə keçən enmə baş vermişdir. 4-cü dərəcədə hər hissədə tam maksimal enmə baş vermişdir [8].

Bundan başqa uşaqlıq yolunun ön divarının defektinin 3 növü vardır. 1-ci növ - Lateral sistosele və paravaginal defekt - bu zaman valsalva manevrası zamanı uşaqlıq yolunun ruqaları izlənilir, yan divarların sallanması izlənilir. 2-ci növ - Mərkəzi sistosele zamanı mərkəzi şişlik izlənilir, ruqalar izlənilmir. 3-cü növ - Transvers sistosele bu zaman enmə apikal nahiyyədən izlənilir. Uşaqlıq yolunun arxa divarının defektlərinin 2 növü vardır: Rektosele və enterosele. Enterosele yalnızca uşaqlıq yolunun arxa divarının arxasında nazik bağırsaq hərəkətləri göründüyü zaman izlənilir (şəkil 2). Bundan əlavə digər simptomlar üçün əlavə müayinələrdə edilməlidir. Uroloji simptomlar üçün urodinamik müayinə istifadə olunmalıdır [5].



Şəkil 2. *Nazik bağırsağın prolapsı (enterosele) çanaq boşluğunda bağırsaqları (nazik bağırsaq) yerində saxlayan əzələ və toxumalar zəiflədikdə, nazik bağırsağın aşağı enərək uşaqlıq yolundan çıxmasına səbəb olur. Sol tərəfdə - norma, sağ tərəfdə - enterosele.*

Həm konservativ, həm də cərrahi müalicə xəstənin yaşından, gələcək fertillik və cinsi aktivlik arzusundan, simptomların şiddətindən və müşayiət olunan tibbi problemlərdən asılı olaraq seçilə bilər. Uşaqlıq yolunun enən hissəsinə uyğun olaraq müalicə seçilir. Simptomatik xəstələrdə konservativ və ya cərrahi müalicə aparılır və müalicə seçimi xəstənin arzusundan asılıdır. Konservativ müalicə cərrahi müalicədən sonra ağırlaşmalar və residiv riski yüksək olan və ya cərrahi müdaxilələrdən imtina edən xəstələr üçün uyğundur. Müalicə variantları arasında ginekoloji pessarilərin qoyulması, çanaq dibi əzələlərinin məşqləri, hormon terapiyası və s. [6]. Simptomatik POP olan xəstələrin üçdə ikisi pessari ilə müalicəni seçir və 77%-ə qədəri 1 ildən sonra istifadəyə davam edir [9]. Ginekoloji pessari çanaq orqanlarını dəstəkləyərək və bağırsağa təzyiqi azaltmaqla prolapsı aradan qaldırmaq üçün uşaqlıq yoluna yerləşdirilən bir cihazdır, müxtəlif forma və ölçülərdə olur. Pessarinin daxil edilməsindən sonra xəstələr müxtəlif gündəlik həyat fəaliyyətini (oturma, ayaq üstə və əyilmə duruşları, Valsalva manevri) yerinə yetirməklə pessarinin düzgün vəziyyətdə olub-olmadığını təsdiqləməlidirlər. Bütün xəstələr pessari qoyulduqdan sonra 4-6 həftə ərzində yoxlanılmalıdır. Pessari yeni simptomları və uşaqlıq yolunun selikli qişasında bir zədə, eroziya varlığının təyini üçün müntəzəm nəzarət tələb edir. Eroziya halında, vaginal estrogen tərkibli kremi və ya estradiol vaginal tabletləri istifadə edilə bilər. Bir pessari müntəzəm olaraq dəyişdirilməlidir. Müdaxilələrə baxmayaraq davam edən eroziyaların biopsiyası nəzərdən keçirilməlidir. Ən çox görülən yan təsirlər ifrazat və pis qoxudur, ağır ağırlaşmalara vezikovaginal və ya rektovaginal fistula, hidronefroz və digər daxildir. Pessaridə müntəzəm olaraq sterilizasiya edilməlidir. Təxminən 2300 xəstədə çanaq dibinin əzələ təliminin meta-analizi, əzələ gücləndirici məşqlərin prolaps mərhələsində və simptomların yaxşılaşmasına müsbət təsir göstərdiyini nəticəsini bildirib [6]. Kegel məşqləri (pelvik əzələ məşqləri) prolaps dərəcəsi 1 və ya 2 olan qadınlara təklif edilməlidir. Bu pelvik əzələ məşqləri prolapsları təxminən 1-2 sm yaxşılaşdırdığı müəyyənləşmişdir. Belə qadınlarda yaxşılaşmanın ölçülməsi üçün 12-16 həftə məşqlərin edilməsi nəzərdə tutula bilər. Təlimlər xəstə üçün faydalı olarsa davam etdirilməlidir [10]. 20 Tədqiqat sistematik və topikal estrogen hormonu terapiyalarının POP-u aradan qaldırmağa kömək edə biləcəyini təsvir etsə də, məlumat kifayət deyil onların effektivliyini dəstəkləyir [6].

Prolapsın cərrahi müalicə 2 tip olur. Bunlara aiddir: rekonstruktiv və obliterativ. Obliterativ müalicəyə Lefort kolpoklezis aiddir. Bu müalicə yalnızca yaşlı, koitusu olmayan və tibbi olaraq riski olan xəstələr üçündür. Bu cərrahi əməliyyat zamanı uşaqlıq yolunun epitelisinin artıq hissəsi kəsilərək çıxarılır və uşaqlıq yolunun ön arxa divarı bir birinə tikilir. 10% xəstələrdə koitus itməsi ilə bağlı kolpoklezis sonrası peşmanlıq müşahidə olunmuşdur.Üretranın aşağıya doğru çəkilməsi səbəbi ilə kolpoklezis sonrası gizli stress sidik saxlamamazlıq müşahidə edilə bilər. Rekonstruktiv cərrahiyyə zamanı normal anatomiya bərpa edilməyə çalışılır, obliterativ cərrahidən daha çox istifadə olunur. Vaginal, abdominal və laparoskopik, robotik olmaqla 4 növü vardır. Daha çox vaginal cərrahi müalicə seçilir. Amma vaginal cərrahi müalicə keçirmiş, qısalmış uşaqlıq yolu olan və ciddi proplası olan qadınlarda digər cərrahi üsullar daha effektiv olur. Laparoskopik əməliyyatlara sakrokolpopeksiya, pektopeksiya, uterosakral bağların yüksək fiksasiyası, paravaginal deffektin bərpası aiddir. Uşaqlıq yolunun ön divar deffektlərin bərpası üçün əvvəllər ön kolporrafiya istifadə olunurdu, lakin uzun müddət istifadə zamanı üsulun effektsizliyi müəyyənləşdi və bu defektlər zamanı laparoskopik sakrokolpopeksiya, pektopeksiya, uterosakral bağların yüksək fiksasiyası istifadə olunmağa başlanıldı [11].

Prolapsın apikal defektin korreksiyasında laparoskopik torun istifadəsinin 2 əsas üsulu var. Birincisi - ənənəvi olaraq "qızıl" standard olaraq sakropeksiya əməliyyatıdır. İkinci üsul isə son zamanlar təklif edilən və qısa zamanda geniş yayılmağa başlayan pektopeksiyadır. Hər iki üsul torun yerləşdirilməsini nəzərdə tutur. Sadəcə proksimal fiksasiya nöqtələri fərqli olur.

Son illərdə seçim proseduru abdominal sakrokolpopeksiya aparılır, bu da laparotomiya, laparoskopiya və ya robotik cərrahiyyə köməyi ilə edilə bilər. Sakrokolpopeksiya zamanı vaginal güdül sakruma xüsusi sintetik torlar vasitəsi ilə bağlanılır. 1962-ci ildə Leyn tərifindən aparılır və o vaxtdan indiyənədək prosedur bir çox dəyişikliklərə məruz qalmışdır. Bununla belə, presakral damarların zədələnməsi nəticəsində qanaxma riski yüksəkdir. Əsas üstünlüyü dayanıqlı olması və normal anatomiyanın qorunmasıdır. Bu prosedur vaginal funksiyanı saxlamaq istəyən, eləcə də uşaqlıq və uşaqlıq yolunun ön divarının prolapsı müalicə etmək üçün əvvəlki əməliyyatları uğursuz olan qadınlarda əsas yanaşma kimi qəbul edilir. Sakropeksiyadan sonra tez-tez rast gəlinən nəticələr defekasiya aktın pozulmaları və stress sidik qaçırma (SUI) olur. Bu vəziyyət daha çox defekasiya aktın pozulmalarının keçmişdə lazımi səviyyədə qiymətləndirilməməsi ilə bağlıdır. Laparotomiya və həmçinin laparoskopiya yolu ilə aparılan sakropeksiyaya dair aparılan tədqiqatlarda tez-tez meteorizm, qəbizlik və xroniki ağrı ilə bağlı problemlər bildirilir. Defekasiya pozulmalarının səbəbi çanaqda daha az boşluq (çıxış maneəsi), bitişmələr və ya hipoqastrik sinirlərin travması ola bilər. 2007-ci ildə ilk dəfə olaraq apikal defektin bərpası üçün yeni bir texnika kimi pektopeksiya təsvir edilmişdir. Bu üsul zamanı tor fiksasiyası etmək üçün hər iki tərəfdəki iliopektineal bağdan istifadə edilir, buna görə də torun yaratdığı heç bir məhdudiyyət yoxdur. Tor sidik axarları və ya bağırsaq kimi həssas nöqtələri keçmədən təbii strukturları (enli və girdə bağları) izləyir. Hipogastrik gövdə təhlükəsiz məsafədə və təhlükədən kənardadır. İliopektineal ligamentin lateral hissəsində tikiş üçün kifayət qədər material tapmaq həmişə mümkündür [11]. Laparoskopik pektopeksiya apikal prolaps üçün mümkün cərrahi üsuldur, laparoskopik sakropeksiya ilə müqayisədə daha qısa əməliyyat müddəti və əməliyyatdan sonrakı ağırlaşmaların az olması qeyd olunur [12]. Ən çox yerinə yetirilən transvaginal asma prosedurlarından biri, coccygeus sacrospinous ligamentin apeksə bağlandığı sakrospinozis fiksasiyadır [9]. Bu cərrahi unilateral və bilateral edilə bilər [13]. Bununla belə, texnika vaginal oxu posteriora yönəltdiyinə üçün bu xəstələrdə tez-tez uşaqlıq yolunun ön divarının defektlərinin inkişafına səbəb ola bilər. Digər ağırlaşmalara pudendal arteriyanın cırılması, vaginal qısalma, cinsi disfunksiya və pudendal sinirin zədələnməsi daxildir [9]. Arxa kolporrafiya uşaqlıq yolunun arxa divarının defektlərinin bərpasında istifadə olunur. Arxa kolporrafiya zamanı anatomik yaxşılaşma 76%-96% arasındadır və simptomlarda 75% yaxşılaşma müşahidə edilir. Bəzi hallarda genital hiatusu (boşluğu) kiçiltmək və təkrar enmənin qarşısını almaq üçün levator ani plikasyonuda aparılır. Bu zaman xəstələrdə 12-27% hallarda disparuniya olur [5, 13-18].

Beləliklə, pelvik orqan prolapsı qadınlar arasında yayılmış bir xəstəlikdir və müvafiq müalicə tələb edir. Ancaq müxtəlif səbəblərə görə diaqnoz gecikdirilə bilər. İlkin tibbi yardımda gündəlik həyatda həyat tərzi məsləhətləri sağlam həyat tərzi, çəki artımın qarşısını almaq, ağır yüklərdən qaçınmaq, qəbizliyin idarə edilməsi və çanaq dibi əzələlərinin məşqindən (Kegel əzələ məşqləri) ibarətdir. Davamlı

simptomlardan və diskomfortdan şikayət edən xəstələrə həyat keyfiyyətinin yaxşılaşdırılması üçün geniş müalicə variantları (konservativ və cərrahi) təklif edilməlidir.

РЕЗЮМЕ

Оптимальные подходы в диагностике и лечении пролапса тазовых органов

Гусейнова Флора Фарадж кызы
Частная клиника «Медицинский центр Нурана»
Джалилабад, Азербайджан

Ключевые слова: *пролапс органов таза, факторы риска, диагностика, формы лечение*

Пролапс тазовых органов – распространенное заболевание среди женщин и требует соответствующего лечения. Однако постановка диагноза может быть отложена по разным причинам. Рекомендации по образу жизни для повседневной жизни в учреждениях первичной медико-санитарной помощи включают здоровый образ жизни, предотвращение увеличения веса, отказ от поднятия тяжестей, борьбу с запорами и тренировку мышц тазового дна (упражнения Кегеля). Пациентам, которые жалуются на постоянные симптомы и дискомфорт, следует предложить широкий спектр вариантов лечения (консервативного и хирургического) для улучшения качества жизни.

SUMMARY

Optimal approaches in the diagnosis and treatment of pelvic organ prolapse

Huseynova Flora Faraj
Private clinic "Nurana Medical Center"
Jalilabad, Azerbaijan

Key words: *pelvic organ prolapse, risk factors, diagnosis, forms of treatment*

Pelvic organ prolapse is a common condition among women and requires appropriate treatment. However, diagnosis may be delayed for various reasons. Lifestyle recommendations for daily living in primary care include healthy lifestyle choices, avoiding weight gain, avoiding heavy lifting, managing constipation, and exercising the pelvic floor muscles (Kegel exercises). Patients who complain of persistent symptoms and discomfort should be offered a wide range of treatment options (nonoperative and surgical) to improve quality of life.

ƏDƏBİYYAT

1. https://www.acog.org/womens-health/videos/understanding-pelvic-organ-prolapse
2. https://www.ncbi.nlm.nih.gov/pmc/articles/PMC5347042/
3. DeLancey JOL. Anatomic aspects of vaginal eversion after hysterectomy. Am J Obstet Gynecol. 1992;166:1717.
4. https://www.ncbi.nlm.nih.gov/books/NBK563229/
5. Williams jinekoloji, bölmə 24, səh –532
6. https://www.ncbi.nlm.nih.gov/pmc/articles/PMC6336571/
7. https://www.rcog.org.uk/for-the-public/browse-our-patient-information/pelvic-organ-prolapse/
8. https://www.ncbi.nlm.nih.gov/pmc/articles/PMC3056425/
9. https://pubmed.ncbi.nlm.nih.gov/31663890/#:~:text=Pelvic%20organ%20prolapse%20(POP)%20is,of%20undergoing%20surgery%20for%20POP.
10. https://www.ncbi.nlm.nih.gov/books/NBK564303/
11. https://www.ncbi.nlm.nih.gov/pmc/articles/PMC4313410/#:~:text=Conclusion%3A%20Laparoscopic%20pectopexy%20is%20a,zero%20percentage%20of%20defecation%20disorders.
12. https://pubmed.ncbi.nlm.nih.gov/34406417/

13. https://www.figo.org/sites/default/files/2020-07/FIGO%20UGPF%20C%20Surgeries%20for%20Pelvic%20Organ%20Prolapse.pdf
14. https://pubmed.ncbi.nlm.nih.gov/33232087/
15. https://www.ncbi.nlm.nih.gov/pmc/articles/PMC3236436/
16. http://medi-guide.meditool.cn/ymtpdf/54635D3C-EC04-A4CC-CD0C-8DFED6C357DE.pdf
17. https://www.hse.ie/eng/about/who/acute-hospitals-division/woman-infants/clinical-guidelines/diagnosis-and-management-of-pelvic-organ-prolapse.pdf
18. https://www.ncbi.nlm.nih.gov/pmc/articles/PMC10432240/

СРАВНИТЕЛЬНАЯ ОЦЕНКА МЕТОДОВ ДИАГНОСТИКИ ПРЕЖДЕВРЕМЕННЫХ РОДОВ

Дж.Ф. Курбанова, Н.А. Шахбазова, Л.Р. Сулейманова, Х.М. Адыгёзалова, К.Х. Эфендиева
Научно-Исследовательский Институт Акушерства и Гинекологии Министерства Здравоохранения Азербайджанской Республики

Ключевые слова: *преждевременные роды, цервикометрия, предикторы родов, плацентарный альфа-микроглобулина-1, белок-1, связывающий инсулиноподобный фактор роста, фетальный фибронектин*

Преждевременные роды считаются серьезной медико-социальной и демографической проблемой из-за частоты неблагоприятных перинатальных исходов, а также перинатальной смертности [1,2,3]. Тем не менее, существующие проблемы, связанные с преждевременными родами во всем мире, не нашли своего решения. Одним из главных вопросов является правильная диагностика преждевременных родов. По данным многих исследований, до 33% женщин госпитализируются по поводу проблем, связанных с подозрением на преждевременные роды. Но до 85% госпитализированных беременных не рожают в течение следующих 7 дней и получают различную медикаментозную терапию [4]. К ним относятся кортикостероиды и токолитики, антибиотики, хирургическая коррекция шейки матки, пессарии, препараты прогестерона и т. д., что приводит к ненужным и потенциально вредным методам лечения.

Были предложены различные биохимические маркеры для выявления женщин с риском спонтанных преждевременных родов. Наиболее распространенные из них: фетальный фибронектин (fFN), белок-1, связывающий инсулиноподобный фактор роста (IGFBP-1), плацентарный альфа-микроглобулин-1 (PAMG-1). Способность прогнозировать сроки родоразрешения у беременных с признаками угрозы преждевременных родов, поможет решить две взаимосвязанные задачи: обеспечить раннее профилактическое лечение и избежать напрасной госпитализации, лечения и использования ресурсов больницы.

Цель исследования. Выяснить прогностическую ценность экспресс-маркеров (плацентарный альфа-микроглобулина-1, белок-1, связывающий инсулиноподобный фактор роста, фетальный фибронектин) в диагностике преждевременных родов.

Материалы и методы исследования. Проведено проспективное рандомизированное когортное исследование, включившее 86 беременных основной группы, получавших стационарное лечение по поводу угрозы преждевременных родов в 2023-2024 г. на базе «НИИ Акушерства и Гинекологии» Минздрава Азербайджана на различных сроках беременности.

В исследовании было проведено изучение специфических маркеров (плацентарный альфа-микроглобулина-1 (PAMG-1), белок-1, связывающий инсулиноподобный фактор роста (IGFBP-1), фетальный фибронектин (fFN)) во влагалищном отделяемом беременных с угрозой преждевременных родов. Этот диагноз был выставлен при укорочении шейки матки менее 25 мм по данным ультразвуковой цервикометрии. Плацентарный альфа-микроглобулин был определен посредством QIAGEN Sciences AmniSure ROM Test (США). Для выявления белка-1, связывающий инсулиноподобный фактор роста, был использован AMP rapid test IGFBP-1 AMEDA Labordiagnostik GmbH (Австрия), для фетального фибронектина - StrongStep Fetal Fibronectin Rapid Test (Китай).

В исследовании беременные были разделены на 3 группы по гестационному сроку: I группа - 22-28 недель беременности - 24 человека (28%), II группа – 29-33 недель беременности – 43 человека (50%), III группа –34-37 недель беременности – 19 человек (22%).

Все пациентки подписали информированное добровольное согласие об участии в данном исследовании.

Статистическую обработку данных проводили с использованием пакета прикладных программ «Excel», «SPSS Statistics 22.0». Для показателей, характеризующих качественные признаки, указывали абсолютное значение (*n*) и относительную

величину (%), для проверки статистических гипотез использовали критерий хи-квадрат (χ^2). При интерпретации результатов за критическую принята величина $p<0,05$. Прогностическую ценность маркеров оценивали по таким данным, как чувствительность маркера (Se,%), специфичность маркера (Sp,%), положительная прогностическая ценность (PV+), отрицательная прогностическая ценность (PV-).

Результаты исследования и обсуждение. Возраст беременных составлял от 17 до 58 лет, распределение беременных по возрасту: менее 20 лет – 15 беременных (17,4%), 21-30 лет – 28 беременных (32,5%), 31-40 лет – 26 беременных (30,2%), старше 41 года – 17 беременных (19,7%). Пациентки различных групп были сопоставимы по возрасту.

У пациенток с угрозой преждевременных родов были использованы вышеописанные маркеры в виде стрип-тестов. Была определена прогностическая значимость, чувствительность и специфичность различных маркеров, представленные в таблице 1.

Таблица 1.

Прогностическая оценка лабораторных маркеров преждевременных родов (n=86)

Маркер	Результат теста	Количество пациентов (n/%)	Преждевременные роды		Se,%	Sp,%	PV+	PV-
			Произошли (n)	Не произошли (n)				
PAMG-1	Положительный	75/87,2	71	4	95,9	66,6	94,6	72,7
	Отрицательный	11/12,8	3	8				
IGFBP-1	Положительный	62/72,1	58	4	87,9	80,0	93,5	66,7
	Отрицательный	24/27,9	8	16				
fFN	Положительный	66/76,7	60	6	77,9	33,3	90,9	15,0
	Отрицательный	20/23,3	17	3				

Оказалось, что тест с PAMG-1 был положительным в 87,2% случаев, тест с IGFBP-1 был положительным у 72,1% беременных, а тест с fFN был положительным в 76,7% случаев. Прогностическая оценка проводилась по следующим показателям:

- чувствительность (Se) плацентарного альфа-микроглобулина-1 составила 95,9%, белка-1, связывающий инсулиноподобный фактор роста, - 87,9%, фетального фибронектина - 77,9%;
- положительная прогностическая ценность (PV+) была высокой для всех тестов и колебалась от 90,9 до 94,6%;
- отрицательная прогностическая ценность (PV-) была наибольшей для плацентарного альфа-микроглобулина-1 (72,7%), для белка, связывающего инсулиноподобный фактор роста-1, - 66,7% и очень низкой для фетального фибронектина - 15%;
- что касается специфичности (Sp), то следует сказать, что самый высокий результат получен для белка-1, связывающего инсулиноподобный фактор роста - 80%, а для фетального фибронектина - самый низкий результат - 33,3%.

Было проанализировано значение каждого маркера в нашем исследовании в зависимости от срока беременности и результаты представлены в следующих таблицах (таблицы 2, 3, 4).

Таблица 2.
Зависимость прогностической ценности плацентарного альфа-микроглобулина-1 от срока беременности

Срок гестации	Результат теста PAMG-1	Количество пациентов (n/%)	Преждевременные роды		Se,%	Sp,%	PV+	PV-
			Произошли (n)	Не произошли (n)				
22-28 (24)	Положительный Отрицательный	22/91,7 2/8,3	21 1	1 1	95,5	50,0	95,5	50,0
29-33 (43)	Положительный Отрицательный	39/90,7 4/9,3	37 1	2 3	97,4	60,0	94,9	75,0
34-37 (19)	Положительный Отрицательный	12/63,1 7/36,8	7 3	5 4	70,0	44,4	58,3	57,1

В результате анализа выявлено, что тест PAMG-1 более информативен на 22-33 неделе и положителен у 91,7% беременных на 22-28 неделе, у 90,7% беременных на 29-33 неделе, при этом положительный результат на 34-37 неделе был выявлен у 63,1% больных. Оценка прогностической ценности подтвердила эту тенденцию, чувствительность тестов на 22-33 неделе колебалась в пределах 95,5-97,4%, PV+ - 94,9-95,5%, а специфичность и PV - 50-75%. Прогностическая ценность теста PAMG-1 на 34-37 неделе была низкой и колебалась от 44,4% до 70%.

Метаанализ 15 исследований, включающий 1906 женщин, выявил высокую точность ПАМГ для прогнозирования преждевременных в течение 7 и 14 дней после тестирования у беременных с клиническими симптомами [5].

Исследование маркера белка-1, связывающего инсулиноподобный фактор роста, в отделяемом влагалища в зависимости от срока беременности показало, что данный тест чаще был выявлен на 22-33 неделе у беременных с риском преждевременных родов: у 83,3% беременных на 22-28 неделе, у 81,4% на 29-33 неделе. На 34-37 неделе этот тест был положителен только в 36,8% случаев и отрицательный в 63,2%. Прогностические показатели также подтверждают полученные результаты (таблица 3).

Таблица 3.
Прогностическая ценность белка-1, связывающего инсулиноподобный фактора роста, в зависимости от гестационного срока

Срок гестации	Результат теста IGFBP-1	Количество пациентов (n/%)	Преждевременные роды		Se,%	Sp,%	PV+	PV-
			Произошли (n)	Не произошли (n)				
22-28 (24)	Положительный Отрицательный	20/83,3 4/16,7	16 1	4 3	94,1	42,9	80,0	75,0
29-33 (43)	Положительный Отрицательный	35/81,4 8/18,6	31 2	4 6	93,9	60,0	88,6	75,0
34-37 (19)	Положительный Отрицательный	7/36,8 12/63,2	4 5	3 7	58,3	63,6	63,6	58,3

Согласно клиническому протоколу по диагностике и лечению преждевременных родов Азербайджанской Республики (2014), начало преждевременных родов можно диагностировать при длине шейки матки ≤2,5 см по данным ультразвукового исследования или при наличии ФФН в шеечно-влагалищных выделениях [6].

Исследование фетального фибронектина у беременных с риском преждевременных родов позволило получить следующие результаты: на сроке 22-28 недель положительный результат теста выявлен у каждой второй беременной, на сроке 29-33 недели - у 83,7% беременных, а самые высокие показатели выявлены на 34-37 неделе

беременности – у 94,7% беременных. Оценка прогностической значимости этого маркера была выше у беременных со сроком гестации 34-37 недель: Se – 100%, PV+ 88,9%, PV- 100%.

Таблица 4.
Зависимость прогностического значения маркера фибронектина плода от срока беременности

Срок гестации	Результат теста фетального фибронектина	Количество пациентов (n/%)	Преждевременные роды		Se,%	Sp,%	PV+	PV-
			Произошли (n)	Не произошли (n)				
22-28 (24)	Положительный Отрицательный	12/50,0 12/50,0	4 6	8 6	40,0	42,9	33,3	50,0
29-33 (43)	Положительный Отрицательный	36/83,7 7/16,3	22 3	14 4	88,5	22,2	62,2	54,1
34-37 (19)	Положительный Отрицательный	18/94,7 1/5,3	16 -	2 1	100,0	33,3	88,9	100,0

По данным Y. Chekmez et al. диагностическая точность ПАМГ-1 аналогична фетальному фибронектину в плане прогнозирования преждевременных родов в течение 7 дней (исследование проводилось на 72 беременных, положительные прогностические значения ПАМГ-1, ФФН и длины шейки матки составили 73,3%, 82,3% и 64,2% соответственно, а отрицательные прогностические значения -92,9%, 90,9% и 86,2% соответственно) [7].

В нашем иследовании был проведен сравнительный анализ вышеописанных маркеров преждевременных родов (табл. 5).

Таблица 5.
Сравнительная оценка различных экспресс-маркеров преждевременных родов

Срок гестации	PAMG-1 (1), %	IGFBP-1 (2), %	fFN (3), %	p между 1 и 2 гр.	p между 1 и 3 гр.	p между 2 и 3 гр
22-28 (24)	91,7	83,3	50,0	>0,05	<0,01	<0,05
29-33 (43)	90,7	81,4	83,7	>0,05	>0,05	>0,05
34-37 (19)	63,1	36,8	94,7	<0,01	<0,01	<0,001

Сравнительный анализ полученных показателей позволил прийти к выводу, что плацентарный альфа-микроглобулин-1 и белок-1, связывающий инсулиноподобный фактор роста, более информативны в диагностике глубоких преждевременных родов (22-28 недель) и имеют высокую чувствительность и специфичность (положительная прогностическая ценность PV+ составляет 95,5% и 80%, соответственно), тогда как фетальный фибронектин позволяет прогнозировать преждевременные роды лишь в 50% случаев (PV + 33,3%). Напротив, на 34-37 неделе фетальный фибронектин является более информативным маркером в диагностике преждевременных родов (PV+ 88,9%).

Выводы:

1. При длине шейки матки от 10 до 25 мм специфическими маркерами преждевременных родов являются плацентарный альфа-микроглобулин-1, белок-1, связывающий инсулиноподобный фактор роста, и фетальный фибронектин.

2. Значение этих специфических маркеров варьируется в зависимости от срока гестации и для каждого срока существуют свои более информативные тесты. На сроке беременности 22-28 недель наибольшую прогностическую ценность

имеют плацентарный альфа-микроглобулин-1 и белок-1, связывающий инсулиноподобный фактор роста (PV+ составляет 95,5% и 80%, соответственно). Фетальный фибронектин позволяет прогнозировать преждевременные роды только в 50% случаев на этом сроке (PV+33,3%).

3. В 34-37 недель, наоборот, фетальный фибронектиновый тест является наиболее информативным маркером в диагностике преждевременных родов и в большинстве случаев положителен (PV+ 88,9%). Плацентарный альфа-микроглобулин-1 и белок-1, связывающий инсулиноподобный фактор роста, зарегистрированы в 1,5 раза и 2,6 раза реже (PV+ 58,3% и 63,6% соответственно).

4. При риске преждевременных родов у беременных на сроке гестации 29-33 недели все пробы выявляются во влагалищном содержимом с высокой частотой: PAMG-1 (90,7%), fFN (83,7%), IGFBP-1 (81,4%). Все эти маркеры характеризуются высокой чувствительностью и специфичностью, что важно с точки зрения применения в клинической практике.

Список сокращений:

fFN - фетальный фибронектин

IGFBP-1 - белок 1, связывающий инсулиноподобный фактор роста

PAMG-1 - плацентарный альфа-микроглобулин-1

Se - чувствительность

PV+ – положительная прогностическая ценность

PV- – отрицательная прогностическая ценность

Sp – специфичность

SUMMARY

Comparative assessment of methods for diagnosing preterm birth

J.F. Gurbanova, N.A. Shakhbazova, L.R. Suleymanova, Kh.M. Adıgozalova, K.Kh. Efendieva

Scientific Research Institute of Obstetrics and Gynecology. The Ministry of Health of the Republic of Azerbaijan

Key words: *premature birth, cervicometry, predictors of labor, placental alpha microglobulin-1, insulin-like growth factor-binding protein-1, fetal fibronectin*

A prospective randomized cohort study was conducted, which included 86 pregnant women of the main group who received inpatient treatment for the threat of premature birth in 2023-2024 on the basis of the Research Institute of Obstetrics and Gynecology of the Ministry of Health of Azerbaijan at various stages of pregnancy. Biochemical markers were examined to identify women at risk of spontaneous preterm birth (fetal fibronectin, insulin-like growth factor-binding protein 1, placental alpha-microglobulin-1). It was found that the value of these specific markers varied depending on the gestational age and for each period there are more informative tests. At 22-28 weeks of pregnancy placental alpha-microglobulin-1 and insulin-like growth factor-binding protein-1 have the greatest prognostic value.

XÜLASƏ

Vaxtından əvvəl doğuşların diaqnostik üsullarının müqayisəli qiymətləndirilməsi

C.F. Qurbanova, N.A. Şahbazova, L.R. Süleymanova, X.M. Adıgözəlova, K.X. Efendiyeva

Elmi-Tədqiqat Mamalıq və Ginekologiya İnstitutu Səhiyyə Nazirliyi, Bakı, Azərbaycan

Açar sözlər*: vaxtından əvvəl doğuşlar, servikometriya, doğuşun prediktorları, plasentar alfa-mikroqlobulin-1, insulinəbənzər böyümə faktorubirləşdirici protein-1, fetal fibronektin*

Azərbaycan Səhiyyə Nazirliyinin Elmi-Tədqiqat Mamalıq və Ginekologiya İnstitutunun bazasında 2023-2024-cü illərdə vaxtından əvvəl doğuş təhlükəsi ilə əlaqədar stasionar müalicə alan əsas qrupdan olan 86 hamilə qadının daxil olduğu perspektiv randomizə olunmuş kohort tədqiqatı aparılıb. Hamiləliyin müxtəlif mərhələlərində spontan vaxtından əvvəl doğuş riski olan qadınları müəyyən etmək üçün biokimyəvi markerlər araşdırıldı (fetal fibronektin, insulinəbənzər böyümə faktorubirləşdirici protein-1, plasental alfa- mikroqlobulin-1). Bu spesifik markerlərin dəyərinin hestasiya muddətindən asılı olaraq dəyişikli və hər dövr üçün daha informativ testlərin olduğu aşkar edilmişdir. Hamiləliyin 22-28 həftəsində plasental alfa-mikroqlobulin - 1 və insulinəbənzər

At 34-37 weeks, on the contrary, the fetal fibronectin test is the most informative marker in the diagnosis of preterm birth.

faktorubirləşdirici protein-1 ən böyük proqnoz dəyərinə malikdir. 34-37-ci həftələrdə, əksinə, fetal fibronektin testi vaxtından əvvəl doğuşun diaqnozunda ən məlumatlandırıcı markerdir.

ЛИТЕРАТУРА

1. Ахметгалиев А.Р., Фаткуллин И.Ф., Мунавирова А.А. и др. Алгоритм идентификации угрозы преждевременных родов // Казанский медицинский журнал. – 2017. – Т. 98. – №. 1. – С. 132 – 136.
2. Фаткуллин И.Ф., Ахметгалиев А.Р., Мунавирова А.А. и др. Преимущества применения диагностической экспресс-тест-системы для определения плацентарного α-микроглобулина-1 в цервикальном содержимом для идентификации начавшихся/угрожающих преждевременных родов // Акушерство и гинекология. – 2018. – №. 1. – С. 62 – 68.
3. K. Kosinska-Kaczynska, I. Szymusik, D. Bomba-Opon, A. Zyguła, M. Wielgos. Rapid cervical phIGFBP-1 test in asymptomatic twin pregnancies is inefficient in predicting preterm delivery prior to 34 gestational weeks. Ginekol Pol. 2018;89(6):321-325. doi: 10.5603/GP.a2018.0055
4. J. C. Melchor, A. Khalil, D. Wing, E. Schleussner, D. Surbek. Prediction of preterm delivery in symptomatic women using PAMG-1, fetal fibronectin and phIGFBP-1 tests: systematic review and meta-analysis. Ultrasound Obstet Gynecol. 2018 Oct;52(4):442-451. doi: 10.1002/uog.19119. Epub 2018 Sep 4.
5. R. Pirjani, A. Moini, A. Almasi-Hashiani, M. F. Mojtahedi, S. Vesali, L. Hosseini, M. Sepidarkish. Placental alpha microglobulin-1 (PartoSure) test for the prediction of preterm birth: a systematic review and meta-analysis. J Matern Fetal Neonatal Med. 2021 Oct;34(20):3445-3457. doi: 10.1080/14767058.2019.1685962. Epub 2019 Nov 17.
6. C. Məmmədov, F. Qurbanova, F. Abbasova, H. İdrisova, K. Əliyeva. S. Qaziyeva. 22-28 həftəlik hamiləlik daxil olmaqla, vaxtından əvvəl doğuşların idarə olunması üzrə klinik protokol. Baki, 2014. Azərbaycan Respublikası Səhiyyə Nazirliyi.
7. Y. Chekmez, G. Kiran, E. Tushtash Haberal, M. Dizdar. Use of cervicovaginal PAMG-1 protein as a predictor of delivery within seven days in pregnancies at risk of premature birth // BMC Pregnancy Childbirth. 2017 Jul 26;17(1):246. doi: 10.1186/s12884-017-1427-0.

HAMİLƏLƏRDƏ ERKƏN ZAHILIQ DÖVRÜNDƏ HİPOTONİK QANAXMALARIN İNTENSİVLİYİNİ ARTIRAN RİSK AMİLLƏRİNİN RASTGƏLMƏ TEZLİYİ

S.S. Həsənova, E.M. Əliyeva, A.V. Rzayeva, X.P. Zeynalova, A.N. Xudiyeva, A.Ə. Qocayeva
Azərbaycan Tibb Universiteti, I Mamalıq və Ginekologiya Kafedrası, Bakı, Azərbaycan

Açar sözlər: *erkən zahılıq dövrü, hipotonik qanaxmalar, uşaqlıqda çapıq preeklampsiya, anemiya*

Problemin aktuallığı Amerika Mama-ginekoloqların Asossiasiyası **(**American College of Obstetricians and Gynaecologists Green-top Guideline) tərəfindən təklif olunan rəhbərlikdə doğuş və erkən zahılıq dövrünün qanaxmalarının risk amillərini təyin edib [1-4].

Ümumiyyətlə zahılıq dövrü qanaxmalarının səbəbləri – "4T" hərfi ilə başlanan "tonus", "toxuma", "travma", "trombin" kimi etiolojı proseslərinin pozulması nəticəsində ola bilər [5-7].
Ədəbiyyat məlumatlarına əsasən zahılıq dövrünün qanaxmalarının risk amilləri müəyyən edilmişdir. Bu amillərin "tonus", "toxuma", "travma", "trombin" proseslərinə görə etioloji faktoru və klinik əlamətləri təyin edilib [8-12]. Zahılıq dövrünün qanaxmalarının risk amilləri cədvəl 1-də təqdim olunur [13-18].

Cədvəl 1
Zahılıq qanaxmalarının risk amilləri
(Clinical Resourse and Audit Group of the SoDoH and working to the methodology of the Scottish Intercolegiate)

Zahılıq qanaxmalarının risk amilləri		
	Etioloji faktor	**Klinik təzahürlər**
Tonus – uşaqlığın yığılma qabilliyətinin pozulması	Uşaqlığın həddindən artıq dartılması	Çox sululuq Çox döllülük İri döl
	Miometriumun yığılma qabilliyətinin kəskin azalması	Sürətli doğuşlar Uzun sürən doğuşlar Çox doğan qadınlar
	Uşaqlığın funksional və ya anatomik deformasiyası	Uşaqlığın mioması Cift gəlişi Uşaqlığın inkişaf anomaliyaları
Toxuma – uşaqlıqda ciftin hissəvi qalıqları	Ciftin hissələrinin uşaqlıqda qalması. Ciftin anomaliyaları. Ciftin əlavə paycığının uşaqlıq daxilində qalması	Ciftin tamlığının pozulması uşaqlıqda keçirilən əməliyyatdan sonrakı fəsadlar. Çox doğan qadınlar. USM-ə görə ciftin anomaliyaları
	Uşaqlıq daxilində qan laxtalarının qalması	Uşaqlığın hipo-və atoniyası
Travma – doğuş yollarının travması	Uşaqlıq boynunun, uşaqlıq yolunun, aralığın cırılması	Sürətli doğuşlar Doğuşlarda kiçik cərrahi əməliyyatların istifadəsi
	Qeysəriyyə kəsiyi zamanı yumşaq toxumaların həddindən artıq dartılması və zədələnməsi	Dölün qeyri düzgün vəziyyəti. Dölün başının canaq boşluğunda yerləşməsi.
	Uşaqlığın cırılması	Uşaqlıqda cərrahi əməliyyatdan sonra çapıqların olması
	Uşaqlığın çevrilməsi	Çox doğan qadınlarda

Trombin –koaqulyasiya-sının pozulmaları	Qadının qan xəstəliklərinin olması: ingibitorlu hemofiliya; Billebrand xəstəliyi	Anadangəlmə koaqulopatiyalar Qaraciyərin patologiyası
	Qazanılmış koaqulopatiyalar:-udiopatik trombositopenik purpura; —hestasion trombositopeniya; —preeklampsiya zamanı trombositopeniya; —DDLS-sindrom; preeklampsiya, ölü döl, ağır infeksiyalar; ciftin ayrılması, dölyanı sularla emboliya; HELLP sindrom	Dərialtı hematoma A/təzyiqin qalxması. Dölün inkişafının ləngiməsi titrəmə. Leykositoz. Doğuşdan qabaq qanaxmalarının olması. Şok vəziyyəti.
	Antikoaqulantların istifadəsi	Qan laxtasının əmələgəlməməsi

Maughan K.L və həmmüəll. [12] məlumatlarına görə zahılıq dövrünün qanaxmalarının risk amillərinə doğuşun III dövrünün uzunmüddətli olması, preeklampsiya, anamnezində zahılıq dövrünün qanaxmaların olması, çoxdöllü hamiləlik, ciftin doğulmasının ləngiməsi, ciftin hissələrinin uşaqlıq boşluğunda qalması, induksiya olunmuş doğuşlar, ilk doğan qadınlar aiddir.

Tədqiqatın məqsədi Hamilələrdə erkən zahılıq dövründə hipotonik qanaxmalarının intensivliyini artıran risk amillərinin rastgəlmə tezliyinin öyrənilməsi olmuşdur.

Kliniki material və müayinə metodları Aparılan tədqiqata erkən zahılıq dövründə hipotonik qanaxmalara görə risk amilləri olan 85 hamilə daxil edilmişdir.

Tədqiqat zamanı alınan nəticələr statistik işlənilmişdir. Qrup göstəriciləri variasiya sırasında yerləşdirilmişdir. Hər qrup üçün orta qiymət (M), orta qiymətin orta kvadratik meyli (λ^2), onun standart xətası (Se), eyni zamanda sıraların minimal (min) və maksimal (max) qiymətləri müəyyən olunmuşdur. Statistik işləmə orta qiymətin parametrik və qeyri-parametrik üsullarla hesablanması üçün nəzərdə tutulmuş "Statgraph" proqramı tətbiq etməklə aparılmışdır.

Tədqiqatın nəticələr və müzakirəsi 85 hamilədə erkən zahılıq dövründə hipotonik qanaxmaların ehtimalını artıran risk amillərinin tezliyi cədvəl 2-də təqdim olunub.

Cədvəl 2.

Hamilələrin erkən zahılıq dövründə hipotonik qanaxmalarının risk amillərinin rastgəlmə tezliyi

Risk amilləri	Müt	%	Risk amilləri	Müt	%
Anemiya	62	34,4	Mamalıq anamnezində erkən zahılıq dövrdə hipotonik qanaxmaların olması	5	2,8
Uşaqlıqda çapıq	42	23,3	Normal yerləşmiş ciftin vaxtından qabaq hissəvi ayrılması	4	2,2
Döl qişalarının vaxtından əvvəl yırtılması	18	10,0	Cift gəlişi	2	1,1
Piylənmə	17	9,4	Ölü döl	2	1,1
Orta ağır və ağır preeklampsiya	11	6,1	Çoxdöllü hamiləlik	2	1,1
Xarici cinsiyyət üzvlərinin və aşağı ətraf venalarının varikoz genişlənməsi	6	3,3	İri döl	2	1,1
Dölün düzgün olmayan vəziyyəti	5	2,8	Hepatit C	2	1,1

Risk amillərinin tezliyini araşdırarkən yüksək tezliklə anemiya (34,4%), uşaqlıqda çapıq (23,3%), döl qişalarının vaxtından əvvəl cırılması (10%), piylənmə (9,4%), orta ağır və ağır preeklampsiya (6,1%) kimi risk amilləri müəyyən olunmuşdur.

Aparılan tədqiqatda təyin edilmişdir ki, 85 hamilənin, 62-də (72,9%) anemiya, 42-də (49,4%) uşaqlıqda çapıq, 18-də (21,2%) döl qişalarının vaxtından əvvəl cırılması, 17-də (20%) piylənmə, 11-də (12,9%) orta ağır və ağır preeklampsiya, 6-da (7,1%) xarici cinsiyyət üzvlərinin və aşağı ətraf venalarının varikoz genəlməsi, 5-də (5,9%) mamalıq

anamnezində erkən zahılıq dövrdə hipotonik qanaxmaların olması, 5-də (5,9%) dölün düzgün olmayan vəziyyəti, 4-də (4,7%) normal yerləşmiş ciftin vaxtından əvvəl ayrılması, 2-də (2,4%) cift gəlişi, 2-də (2,4%) ölü döl, 2-də (2,4%) çoxdöllü hamiləlik, 2-də (2,4%) iri döl, 2-də (2,4%) hepatit C olmuşdur.

Beləliklə, əsas qrupa daxil olan qadınların 72,9%-də anemiya, 49,4%-də uşaqlıqda çapıq, 21,2%-də döl qişalarının vaxtından əvvəl yırtılması, 20%-də piylənmə, 12,9%-də orta ağır və ağır preeklampsiya yüksək tezliklə rast gəlinir.

SUMMARY

Studying the frequency of occurrence of risk factors that increase the intensity of hypotonic bleeding in pregnant women during early postpartum period

S.S. Hasanova, E.M. Aliyeva, A.V. Rzayeva, X.P. Zeynalova, A.N. Khudiyeva, A.A. Gocayeva
Azerbaijan Medical University
I Department of Obstetrics and Gynecology
Baku, Azerbaijan

***Key words**: hypotonic bleeding, early postpartum period, uterus scar, preeclampsia, anemia*

The purpose of the study. The frequency of occurrence of risk factors that increase the intensity of hypotonic bleeding in pregnant women during early postpartum period was studied.

Clinical material and examination methods. 85 pregnant women with risk factors for hypotonic bleeding during early postpartum period were included in the study.

Research results and discussion In the conducted research, it was determined that 42 (49.4%) of 85 pregnant women had uterine scars, 62 (72.9%) had anemia, 18 (21.2%) had premature rupture of membranes, 17 (20%) had obesity, 11 (12.9%) had moderate and severe preeclampsia, 6 (7.1%) had varicose veins of the external genitalia and lower extremity veins, 5 (5.9 %) in the the presence of hypotonic bleeding in the early pregnancy period in obstetric anamnesis,in 5 (5.9%) the incorrect position of the fetus, in 4 (4.7%) the premature separation of the normally located placenta, in 2 (2.4%) placenta previa, 2 (2.4%) stillbirth, 2 (2.4%) multiple pregnancy, 2 (2.4%) big fetus, 2 (2.4%) hepatitis C was.

РЕЗЮМЕ

Изучение частоты встречаемости факторов риска, повышающих интенсивность гипотонических кровотечений у беременных на раннем послеродовом периоде

С.С. Гасанова, Э.М. Алиева, А.В. Рзаева, Х.П. Зейналова, А.Н. Худиева, А.А. Годжаева
I кафедра акушерства и гинекологии АМУ

***Ключевые слова**: гипотоническое кровотечение, ранний послеродовой период, рубец на матке, преэклампсия, анемия*

